QARABAĞ AZƏRBAYCANDIR!

Yeni Azərbaycan Partiyası xalqın gözü ilə

7

# “Biz Rusiya Federasiyasının təqribən 80 subyekti ilə sıx əlaqə saxlayırıq”

2





SƏS

№ 212 (6653) 19 noyabr 2022-ci il. Qiymәti 60 qәpik

# Yeni Azərbaycan Partiyası: 30 illik şərəfli tarix!




*Yeni Azərbaycan Partiyasının yaranmasından 30 il ötür*

## “Mətbuatın fəaliyyətində milli maraqlar daim öndə olmalıdır"



3

## Terrorun acı üzü: Qarakənd faciəsi



8

## “Təxribatlar milli birliyimizi daha da gücləndir-di”



*“Türkiyədə yaşanan terror hücumunun önəmli bir neçə səbəbi var". Bu sözləri SİA-ya açıqlamasında Altınbaş Universiteti Müəllim və ASAM Mütəxəssisi, Təqaüddə olan Qərargah Polkovnik Dr.Eray Güçlüer deyib.*

8

## Bir zamanlar “Beşdaş", “Yeddi daş" oynardıq...

*Bu gündən dünənə... Baxır, hey baxıram. O uşaqlıq, bu uşaqlıq... O oyunlar, bu oyunlar... Uşaqların bir-birinə o sevgisi, bu sevgisi...*



15

## Autizmi yaradan səbəblər nədir?



16

*Autizm, emosional təzahürlərin və ünsiyyət sferasının açıq şəkildə çatışmazlığı olan zehni və psixoloji inkişafın pozulmasıdır. "Autizm" sözü - öz daxili aləmi olan insan və ya öz içindəki insan deməkdir.*

# “Biz Rusiya Federasiyasının təqribən 80 subyekti ilə sıx əlaqə saxlayırıq”



*Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Hökumətinin sədri ilə geniş tərkibdə görüşü olub*



***Dünən Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə geniş tərkibdə görüşü olub. Görüş iştirakçılarını salamlayan Azərbaycan Prezidenti İlham Əliyev şad olduğunu bildirib ki, qarşılıqlı ticarətin həcmi pandemiyadan əvvəlki səviyyəyə çatır və əminəm ki, bu dinamizm qorunub saxlanacaq:***

- Hörmətli Mixail Vladimiroviç, hörmətli qonaqlar. Sizi Azərbaycanda salamlamağa çox şadam. Biz sizinlə bu ilin əvvəlində görüşdük və sizin səfəriniz barədə razılığa gəldik. Çox şadam ki, Azərbaycana səfər etməyə vaxt tapmısınız. Bilirəm ki, dünən bizim Baş nazirlə görüşünüz olub. Bildiyimə görə, qarşılıqlı fəaliyyətimizə dair mühüm məsələlərin çox geniş spektrini müzakirə etmisiniz.

Bu ilin əvvəlindən Prezident Vladimir Vladimiroviç Putin ilə biz münasibətlərimizə yaxşı ton, yeni dinamika verdik və il ərzində dəfələrlə görüşdük. Dünən də ikitərəfli gündəliyə aid mühüm məsələlər barədə telefonla danışmaq imkanımız olub. Beləliklə, necə deyərlər, prezidentlər münasibətlərimizin bütün spektrini müəyyən edir. Əlbəttə, bütün müvafiq strukturlar da bu istiqamətdə fəaliyyət göstərir. Biz çox şadıq ki, qarşılıqlı ticarətin həcmi pandemiyadan əvvəlki səviyyəyə çatır və əminəm ki, bu dinamizm qorunub saxlanacaq. Ona görə ki, bu gün, o cümlədən sizin səfəriniz çərçivəsində müzakirələr qarşılıqlı ticarət potensialını artırmağa şərait yaradacaq.

Biz yükdaşımaların həcmində də yaxşı dinamika görürük. Tranzit yüklərə gəldikdə isə, mənim fikrimcə, burada rekord göstəricilərə nail oluruq. Təqribən 50-60 faiz artım var və artım perspektivi böyükdür. Həmçinin tranzit-logistika infrastrukturu məsələsində, ilk növbədə, ikitərəfli əsasda və əlbəttə, qonşu ölkələr də cəlb edilməklə qarşılıqlı əməkdaşlıq potensialını artıracağıq. Ona görə ki, Rusiya və Azərbaycan uzun illər boyu ölkələrimizdə nəqliyyat-logistika infrastrukturuna fəal surətdə sərmayə qoyublar. Nəqliyyat dəhlizlərinin, ilk növbədə, Şimal-Cənub dəhlizinin potensialının artırılması bu layihədə iştirak edən bütün ölkələrin maraqlarına uyğun olacaq, o cümlədən biznes üçün əlavə perspektivlər açacaq.

Sizin səfəriniz ərəfəsində mən bəzi statistik məlumatlara baxmışam. Sevindim ki, aviareyslərin sayı sürətlə artır. Həftədə 130-dan çox reys var, yəni, biz praktiki olaraq ən yüksək göstəriciyə nail olmuşuq və Rusiyadan turist axını da artır. Bu il təqribən 80 faiz artım olub. Əlbəttə, pandemiya ilə əlaqədar bu göstərici azalmışdı. Biz hələ pandemiyadan əvvəlki səviyyəyə çatmamışıq, lakin fikrimcə, çatacağıq. Ölkələrimiz arasında sıx dostluq əlaqələrini, bu il Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti barədə Bəyannamə imzalanmasını və il ərzində münasibətlərimizin müttəfiqlik xarakterini dəfələrlə nümayiş etdirməyimizi, iqtisadi-ticari əməkdaşlığın gündəliyini xeyli genişləndirmək niyyətində olmağımızı nəzərə alaraq, düşünürəm ki, reyslərin sayı da artacaq. Bilirəm ki, dünən regionlararası forum uğurla keçib. Bu da bizim ikitərəfli qarşılıqlı fəaliyyətimizin mühüm elementidir. Biz Rusiya Federasiyasının təqribən 80 subyekti ilə sıx əlaqə saxlayırıq. Əlbəttə, bu tədbir çərçivəsində əvvəlki illərdə də və əminəm ki, dünən də yeni vəzifələr müəyyən edilib. Ona görə də gündəlik yetərincə genişdir. Biz 7 yol xəritəsi üzrə fəal iş aparırıq. Əminəm ki, ilin sonuna bu cür yaxşı göstəricilərlə yaxınlaşaraq növbəti ilə də belə dinamizm verəcəyik. Bir daha xoş gəlmisiniz.

**Rusiya Hökumətinin sədri Mixail Muşustin:**

- Sağ olun, hörmətli İlham Heydər oğlu. İlk növbədə, Azərbaycana səfərə dəvətinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm və Hökumətin sədri qismində buraya böyük hörmətlə səfər edirəm. Bizim nümayəndə heyətini çox səmimi qəbul etdiyinizə görə də Sizə, Əli Hidayət oğlunun bütün komandasına təşəkkürümü bildirmək istəyirəm. Biz böyük nümayəndə heyəti ilə gəlmişik. Azərbaycan ilə qarşılıqlı fəaliyyətdə olan əsas regionlarımızın dörd rəhbəri gəlib. Fürsətdən istifadə edib Sizi dövlət bayramınız - Azərbaycanda dünən qeyd edilən Milli Dirçəliş Günü münasibətilə təbrik etmək, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin ən xoş, ən səmimi arzularını çatdırmaq istəyirəm. Siz dediniz ki, dünən axşam onunla danışmısınız.

Biz hökumət xətti ilə məhz Sizin - prezidentlərimizin qəbul etdiyi qərarların yerinə yetirilməsi üçün çox fəal iş aparırıq. Dünən Əli Hidayət oğlu Əsədov ilə biz 11-ci regionlararası forumda iştirak etdik. Forumda qarşılıqlı münasibətlərin gündəliyindəki məsələlərin hamısına toxunuldu. İlk növbədə, energetika, sənaye, nəqliyyat, mədəni-humanitar sahələrə diqqət yetirildi. Danışıqların yekunlarına əsasən, ən müxtəlif sahələrdə əməkdaşlığın inkişafına dair bir sıra sazişlər imzalandı. Nəqliyyat sahəsi çox mühüm, xüsusi sahədir. Əminik ki, birgə infrastruktur-logistika layihələri bütün əməkdaşlıq kompleksinin genişləndirilməsi üçün yeni drayver olacaq. Burada Qərb marşrutunu - Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizini ayrıca qeyd etmək istərdim. Biz 2030-cu ilə qədər bu dəhlizlə daşımaların həcmini artıraraq ildə 15 milyon tona çatdırmaq niyyətindəyik.

Mədəni-humanitar əlaqələrə ənənəvi olaraq xüsusi əhəmiyyət veririk. Siz dediyiniz kimi, diplomatik münasibətlərin qurulmasının bu il 30 illiyini qeyd edirik. Bu mühüm hadisəyə həsr edilmiş təntənəli silsilə tədbirlər keçirilib. Gələn il isə biz görkəmli sovet və Azərbaycan dövlət xadimi, Sizin atanız Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyini qeyd edəcəyik.

Biz dünən də qeyd etdik ki, Bakıda bizim institutların - Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Rusiyada da Azərbaycandan olan on bir mindən çox tələbə təhsil alır. İnsanlar arasında birbaşa əlaqələrin bu cür inkişafı, zəngin tarix, mədəniyyət və ənənələrlə tanışlıq bizim qarşılıqlı münasibətlərimizi möhkəmləndirəcək.



Dövlətimizin başçısı Rusiya Prezidentinin xoş arzularına görə minnətdarlığını bildirdi, onun da xoş arzularını Vladimir Putinə çatdırmağı xahiş edib.

# “Mətbuatın fəaliyyətində milli maraqlar daim öndə olmalıdır”

## *YAP Mərkəzi Aparatında jurnalistlər arasında fərdi yazı müsabiqəsinin nəticələrinə həsr edilmiş tədbir keçirilib*

***Noyabrın 18-də Yeni Azərbaycan Partiyasının (YAP) təsis olunmasının 30-cu ildönümü ilə əlaqədar YAP Mərkəzi Aparatı tərəfindən jurnalistlər arasında elan olunan fərdi yazı müsabiqəsinin nəticələrinə həsr edilmiş tədbir keçirilib. Əvvəlcə YAP-ın Mərkəzi Qərargahında müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.***



Tədbirdə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov noyabr ayının əlamətdar hadisələrlə zəngin olduğunu bildirib. 8 Noyabr - Zəfər Gününün əhəmiyyətindən bəhs edən YAP Sədrinin müavini deyib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm Zəfərin qazanılmasında müstəsna rolu olan və böyük şücaət göstərmiş qəhrəman Vətən övladlarını Azərbaycan xalqı heç zaman unutmayacaq, bu yolda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsini daim böyük ehtiramla yad edəcək. Bu günlərdə 9 Noyabr - Dövlət Bayrağı Gününün xalqımız tərəfindən qürurla qeyd edildiyini xatırladan YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, işğaldan azad edilmiş ərazilərdə üçrəngli Bayrağımızın dalğalanması hər bir vətəndaşımız üçün iftixar mənbəyidir. Eyni zamanda, 12 Noyabr - Konstitusiya Gününün və 17 Noyabr - Milli Dirçəliş Gününün tarixi əhəmiyyətə malik olduğunu deyən Tahir Budaqov əlavə edib ki, 1992-ci il 21 noyabrda Yeni Azərbaycan Partiyasının yaradılması çoxəsrlik dövlətçilik və müasir müstəqillik tariximizin ən əlamətdar hadisələrindəndir.

Tahir Budaqov bildirib ki, şanlı qələbəyə gedən yol xalqın iradəsi ilə güclü lider və dahi şəxsiyyətin - ulu öndər Heydər Əliyevin ətrafında Yeni Azərbaycan Partiyasının yaradılması ilə başladı: ”30 il əvvəl yaradılan Yeni Azərbaycan Partiyası o dövrdə respublikamızda siyasi sistemin formalaşmasında və inkişafında müstəsna rol oynadı, eləcə də demokratik proseslərin, sivil siyasi mübarizənin əsasını qoydu. Partiyamızın yarandığı gündən bir neçə ay sonra xalqın etimadı ilə hakimiyyətə gəlməsi isə dünya siyasi tarixində nadir hadisələrdən biridir. Bilirsiniz ki, YAP-ın yarandığı dövrdə Azərbaycanda dərin siyasi və iqtisadi böhran hökm sürürdü. Ermənistanın hərbi təcavüzü nəticəsində respublikamız ağır humanitar fəlakətlə üz-üzə qalmışdı. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, müdrik siyasəti və titanik fəaliyyəti sayəsində siyasi xaosun, iqtisadi tənəzzülün, vətəndaş qarşıdurmasının qarşısı alındı və respublikamız inkişaf yoluna qədəm qoydu. Xalqımız haqlı olaraq o dövrü qurtuluşdan tərəqqiyə aparan tarixi dönəm kimi səciyyələndirir. Çünki bütün çətinliklərə baxmayaraq, ulu öndər Heydər Əliyev Azərbaycanı təlatümlərdən xilas etdi, ölkəni regional və beynəlxalq təcrid vəziyyətindən çıxardı və nəticə etibarilə respublikamız dünya birliyində öz layiqli yerini tutdu”.



YAP Sədrinin müavini söyləyib ki, Azərbaycanın iqtisadi imkanlarının artması güclü ordu quruculuğuna da əhəmiyyətli təsir göstərdi. Bu amil qələbəyə aparan yolda müstəsna əhəmiyyət kəsb edir. Cənab İlham Əliyevin 2003-cü ildə ölkə Prezidenti, 2005-ci ildə isə Yeni Azərbaycan Partiyasının Sədri seçilməsindən sonra Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi nəticəsində tarixi Zəfər əldə olundu. Bu gün qalib xalqın nümayəndələri olaraq hər birimiz fəxarət hissi keçiririk.



Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər keçirildiyini vurğulayan Tahir Budaqov fərdi yazı müsabiqəsinin önəmindən bəhs edib: ”Təqdim olunmuş məqalələrdə müstəqil Azərbaycanın və Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yol, ulu öndər Heydər Əliyevin tarixi missiyası və xalqımız qarşısındakı misilsiz xidmətləri, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, partiyamızın inkişaf yolu geniş əks olunub. Qərəzsiz mövqe ortaya qoymaq hər bir vətəndaş kimi jurnalistlərin də borcudur. Bu, dövlətçilik qarşısında xidmətin bir nümunəsidir. Mətbuat dünyada ”dördüncü hakimiyyət” hesab olunur. Çünki ictimai rəyin formalaşmasında kütləvi informasiya vasitələrinin mühüm rolu var. Ona görə də mətbuatın fəaliyyətində milli maraqlar daim öndə olmalıdır”. YAP Mərkəzi Aparatının rəhbəri müsabiqədə qalib olan jurnalistləri təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə mətbuatın cəmiyyətin inkişafındakı rolundan danışıb. O qeyd edib ki, bütün insanlar, o cümlədən jurnalistlər tutduqları vəzifədən, peşəsindən asılı olmayaraq ümummilli məsələlərdə daim vətəndaş mövqeyi ortaya qoymalıdırlar. YAP Veteranlar Şurasının sədri müsabiqənin qaliblərini təbrik edib.



YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov müsabiqənin nəticələri haqqında məlumat verib. Bildirilib ki, Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən jurnalistlər arasında elan olunan fərdi yazı müsabiqəsi sentyabrın 5-dən oktyabrın 7-dək davam edib. Daxil olmuş məqalələr Müsabiqə Komissiyası tərəfindən qiymətləndirilib və yekun ballara əsasən nəticələr müəyyən olunub. Müsabiqənin şərtlərində əks olunduğu kimi, bir nəfər I, iki nəfər II, üç nəfər isə III yer üzrə qalib olub. On nəfər müsabiqə iştirakçısı isə həvəsləndirici yer üzrə mükafata layiq görülüb.

Çıxış edən Müsabiqə Komissiyasının üzvləri - ”Yeni Azərbaycan” qəzetinin baş redaktoru Alqış Həsənoğlu, ”İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və ”Səs” qəzetinin baş redaktoru Bəhruz Quliyev qeyd ediblər ki, yazıların qiymətləndirilməsi zamanı mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma, materialın oxucu üçün informasiyalılıq dərəcəsi, yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi, jurnalist məsuliyyəti, ictimai maraqların müdafiəsi kimi meyarlar əsas götürülüb və obyektivlik tam təmin olunub. Çap mətbuatı ilə yanaşı, onlayn media subyektlərinin, həmçinin regionlarda fəaliyyət göstərən mətbu orqanların nümayəndələri müsabiqəyə ciddi maraq göstəriblər.

Tədbirdə müsabiqənin qaliblərindən ”Şərqin səhəri” qəzetinin baş redaktoru Muxtar Rzazadə, ”Kaspi” qəzetinin əməkdaşı Rufik İsmayılov və ”Kür” qəzetinin baş redaktoru Əminə Əhmədova çıxış edərək Yeni Azərbayan Partiyasının 30 illik fəaliyyətinin işıqlandırılmasında fərdi yazı müsabiqəsinin əhəmiyyətini vurğulayıblar.

Qeyd edək ki, müsabiqənin nəticələrinə görə, ”Kür” qəzetinin baş redaktoru Əminə Əhmədova I yerə layiq görülüb. İkinci yerin qalibləri Muxtar Rzazadə (”Şərqin səhəri” qəzeti) və Günel Abbasova (”Yeni Azərbaycan” qəzeti), üçüncü yerin qalibləri isə Elçin Mehdiyev (Trend İnformasiya Agentliyi), Sevinc Qarayeva (”525-ci qəzet”) və İlkin Nəcəfzadə (”AzVision.az” internet saytı) olub.

Həvəsləndirici mükafatlara isə Mətləb Salahov (”Səs” qəzeti), Zahid Rza (”İki sahil” qəzeti), Aysel Aslan Turan (Modern.az internet saytı), Nazim Hüseynov (”Oğuz yurdu” qəzeti), Yeganə Bayramova (”Yeni Azərbaycan” qəzeti), Əli İbrahimov (BayMedia.az internet saytı), Könül Məmmədova (”Şirvan” qəzeti), Ramiz Cürənov (APA İnformasiya Agentliyi), Rufik İsmayılov (”Kaspi” qəzeti) və Əli Əliyev (”Xalq qəzeti”) layiq görülüb.

# YAP 30: QALİB AZƏRBAYCAN YENİ UĞURLARA DOĞRU

*Yenə də xalqımızı böyük tarixi hadisənin - Yeni Azərbaycan Partiyasının tarixi ildönümünü qeyd edir. Düz 30 il öncə Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyevin yaradıcısı olan Yeni Azərbaycan Partiyasının 30-cu ildönümünü böyük qürurla qeyd edirik. Tarixi zərurətdən yaranan və zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş, müstəqil Azərbaycanımızın firavan gələcəyinin dünəni, bu günü və gələcəyi naminə öz fəaliyyətini göstərən Yeni Azərbaycan Partiyası düz 30 şərəfli və möhtəşəm yol keçib.*

## İLHAM ƏLİYEV: "Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır"

Və 30 il böyük inkişaf yolu keçən Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək söyləyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır".

### "91-LƏR"İN MÜRACİƏTİ BÜTÜN XALQIN ARZU VƏ İSTƏKLƏRİNİN İFADƏSİ İDİ

Bəli, həmin vaxt hakimiyyətdə olan AXC-Müsavat liderlərinin bacarıqsızlığı, səriştəsizliyi, naşılığı ucbatından səriştəsiz qüvvələr öz antimilli, yəni milli maraqlardan uzaq siyasətləri ilə Azərbaycanı parçalanma, hətta məhvolma təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Vəziyyətin getdikcə ağırlaşdığı, yenicə qazanılmış müstəqilliyimizin məhv olmaq həddinə çatdığı bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvana, Heydər Əliyevə müraciət göndərildi. Ulu öndər o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədrlik edirdi. Azərbaycanın ən yeni tarixinə "91-lər"in müraciəti kimi daxil olmuş həmin sənəd, əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin hamısı bu müraciətə qoşulmaq arzusunda idi. Müxtəlif peşə adamlarından ibarət olan 91 nəfərin imzaladığı müraciətdə ulu öndər Heydər Əliyevdən ağır günlərini yaşayan Azərbaycana və yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu. Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı xilası böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevdə görürdü. 1992-ci ilin oktyabrın 16-da 91 nəfər ziyalı "SƏS" qəzetində ümummilli liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz.

### "AZƏRBAYCAN SİZİN SÖZÜNÜZÜ VƏ QƏTİ QƏRARINIZI GÖZLƏYİR"

91 nəfərin imzaladığı müraciətdə 1992-ci il oktyabrın 16-da imzalanmış müraciətdə respublikamızın, xalqımızın vəziyyətinin gündən-günə ağırlaşmasından bəhs olunurdu və qeyd edilirdi ki, Azərbaycan, sözün əsl mənasında, siyasi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbini son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranında görən ziyalılar müraciətlərində bildirirdilər ki, ali hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində, iflic vəziyyətinə düşmüşdür: "Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir. Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi odur ki, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır". Ziyalılar öz müraciətlərində ölkədə anarxiya, xaos, özbaşınalıqların baş alıb getməsindən söhbət açır, əminliklə bildirirdilər ki, indiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Müraciəti imzalayanlarda bu əminliyi ulu öndərin uzun illər əldə etdiyi dövlət quruculuğu təcrübəsinə əsaslanmaları yaradırdı. Ziyalılar inamla bildirdilər ki, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadir yalnız Sizsiniz: "Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq, belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir". Və 5 noyabr tarixdə respublika ziyalılarının YAP təşkilat komitəsinin yığıncağı keçirildi. Heydər Əliyev yekdilliklə təşkilat komitəsinin sədri seçildi. 21 noyabr 1992-ci ildə isə Naxçıvan şəhərində YAP-ın təsis konfransı keçirildi və Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçildi. Bir sözlə, YAP-ın yaranmasından sonra partiyadaxili təşkilatlanma proseslərinin sürətlə getməsi bir daha məlum həqiqətin - xalqın Heydər Əliyevə olan inamının və etimadının təsdiqi oldu. Çünki yaranmasından qısa müddət sonra artıq YAP-ın sıralarında on minlərlə üzv var idi. Bu həm də insanların hakimiyyətdə olan, Azərbaycanı uçuruma aparan, müstəqilliyimizi və dövlətçiliyimizi məhv və yuvarlayan qüvvələrə qarşı olmasının təsdiqi idi. Lakin 1993-cü ildə respublikada vəziyyət daha da ağırlaşdı, Gəncədə Surət Hüseynov silahlı qiyam qaldıraraq, dövlətə qarşı çıxdı. Xalq vətəndaş müharibəsinin bir addımında idi.

### 15 İYUN - BÖYÜK XİLASKARLIQ QAYIDIŞI

Və Azərbaycanın xilas yolu ulu öndər Heydər Əlievin hakimiyyətə qayıdışı idi. İyunun 13-də çağırılan parlamentin fövqəladə sessiyası iyunun 15-də öz işini davam etdirdi. Gündəlikdə bir məsələ durardu: respublika Ali Soveti sədrinin seçilməsi. Bəzi təkliflərin olmasına baxmayaraq, deputatlar bir səslə Ali Sovet sədrinin seçilməsi məsələsini gündəliyə daxil etməyi qərara aldılar. Gizli səsvermə yolu ilə Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. 15 iyun günü xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. 3 oktyabr 1993-cü ildə Azərbaycanda Prezident seçkiləri keçirildi. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, Heydər Əlirza oğlu Əliyevin lehinə 98,8 faiz, əleyhinə 1 faiz səs verildi. 10 oktyabrda Respublika Sarayında (indiki Heydər Əliyev sarayı) prezident Heydər Əliyevin təntənəli andiçmə mərasimi keçirildi. Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı müstəqil ölkəmizin xilası, torpaqlarımızın işğalının dayandırılması, iqtisadi-sosial inkişaf, Azərbaycanın dünyaya açılması, iri neft müqavilələri, xarici investorların ölkəmizə gəlişi, qaçqın və məcburi köçkünlər üçün həyat şəraitinin təmini, bir sözlə, xilas və inkişaf idi. Azərbaycan xalqının Heydər Əliyevin qayıdışı ilə bağlı bütün gözləntiləri qısa vaxtda ölkəmizin yeni reallıqları kimi özünü təsdiq etdi. Separatizmin kökü kəsildi, siyasi böhran, xaos və anarxiya dəf edildi, erməni təcavüzünün ölkənin dərinliklərinə irəliləməsinin qarşısı alındı, iqtisadi böhran və sosial təlatümlərin miqyasının ciddi şəkildə azaldılması mümkün oldu, xalqın dövlətə etimadı, insanların öz gələcəyinə inamı bərpa edildi. Tariximizin yeni səhifəsi - xilaskarlıq səhifəsi yazıldı, Heydər Əliyevin xilaskarlıq missiyası növbəti tarixi fenomen statusu qazandı.

### 1993-CÜ İL ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XALQIN TƏKİDLİ TƏLƏBİ İLƏ HAKİMİYYƏTƏ QAYIDIŞI MÜSTƏQİL AZƏRBAYCANIN, YENİ AZƏRBAYCAN PARTİYASININ TARİXİNDƏ ÖNƏMLİ MƏRHƏLƏNİN TƏMƏLİNİ QOYDU

1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın, Yeni Azərbaycan Partiyasının tarixində önəmli mərhələnin təməlini qoydu. Ümummilli lider Heydər Əliyev bildirirdi ki, tariximizin hər bir səhifəsi bizim üçün əzizdir. Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə dövlətimizin başçısı İlham Əliyev tarixin bu səhifələrinə bir daha diqqəti yönəldərək, bu gün həmin qüvvələrin siyasi meydanlarının Azərbaycanın uğurları fonunda daraldığını bir daha diqqətə çatdırmışdır. "Yeni Azərbaycan Partiyasının yaradılması demokratiyanın təzahürü idi" söyləyən cənab Prezidentimiz İlham Əliyev bildirmişdir ki, buna baxmayaraq, o vaxt hakimiyyəti dövlət çevrilişi nəticəsində zəbt etmiş AXC-Müsavat cütlüyü ən antidemokratik addımlar atmağa hazır idi ki, bu partiyaya əngəllər törətsin. Ancaq Yeni Azərbaycan Partiyası o vaxt ölkədə siyasi sistemin yaradılmasına da çox böyük töhfə vermişdir: "Bu gün biz demokratiya yolu ilə gedirik. Azərbaycanda bütün azadlıqlar - söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı, sərbəst toplaşma azadlığı tam şəkildə təmin edilir. Lakin sərbəst toplaşma azadlığından istifadə etməyə çalışan, özünü müxalifət adlandıran bir dəstə hesab edir ki, onlara qarşı hansısa süni əngəllər törədilir. Halbuki bu, qətiyyən belə deyil, o uğursuz mitinqlərin səbəblərini onlar özlərində axtarmalıdırlar. Xalq o ünsürlərə çoxdan yox deyib. Onlar üçün Azərbaycanın siyasi səhnəsində yer yoxdur. Ona görə yox ki, biz onlara maneçilik törədirik. Ona görə ki, onların, necə deyərlər, kitabı çoxdan bağlanıb. Qeyri-konstruktiv hərəkətləri, aqressiv davranışları onlara xalqın nifrətini birə-on artırır".

### AZƏRBAYCANIN SARSILMAZ TƏMƏLİNİ TƏŞKİL EDƏN HEYDƏR ƏLİYEV YOLUNUN PREZİDENT İLHAM ƏLİYEV TƏRƏFİNDƏN UĞURLA DAVAM ETDİRİLMƏSİ ÖLKƏMİZİN TƏRƏQQİSİNİN ƏSASINDA DAYANIR

Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq 1995-ci il noyabrın 12-də keçirilmiş parlament seçkilərində və 1999-cu il dekabrın 12-də bələdiyyə seçkilərində YAP-ın qələbə qazanması partiyanın aparıcı siyasi qüvvə kimi ümumxalq partiyası olduğunu göstərdi. Bir əsas məqamı da vurğulamaq lazımdır ki, cənab İlham Əliyevin partiyanın I Qurultayında Partiya sədrinin müavini, II Qurultayında partiya sədrinin birinci müavini, III Qurultayında isə partiyanın sədri seçilməsi xüsusi yer tutur. Bundan sonra partiya yeni tarixi inkişaf mərhələsinə qədəm qoymuş, onun sosial və intellektual bazası daha da güclənmiş, xüsusilə gənclərin partiyaya üzv olması prosesi daha da sürətlənmişdir. Prezident seçkilərində YAP-ın namizədi kimi cənab İlham Əliyevin qələbə qazanması xalqımızın partiyanın sədrinə olan böyük inam və etimadından irəli gəlmişdir. Çünki Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin praqmatik və uzaqgörən siyasəti özündə ümummilli maraqları ehtiva etməklə müasir dövrün çağırışlarına cavab verir. Məhz bunun nəticəsidir ki, cəmiyyətin bütün sahələrində əldə olunmuş uğurlar Azərbaycanı dünyaya modernləşmə yolu ilə inkişaf edən, güclü iqtisadi potensiala və inkişafa malik olan qüdrətli dövlət kimi tanıdır. Bir sözlə, Azərbaycanın sarsılmaz təməlini təşkil edən Heydər Əliyev yolunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və müasir dövrün çağırışlarından irəli gələn tələblərə obyektiv, yaradıcı şəkildə yanaşılması ölkəmizin tərəqqisinin əsasında dayanır. Bu proses ümummilli maraqların prioritetliyi, hüquqi dövlət və vətəndaş cəmiyyətinin inkişafı, xalq-hakimiyyət birliyi və demokratik dəyərlərin cəmiyyətdə özünə dərin kök salması kimi xüsusiyyətlərlə xarakterizə olunur.

### QALİB XALQIN QALİB YENİ AZƏRBAYCAN PARTİYASI

Bəli, bu gün Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünü tarixi ədalətin bərpa olunduğu, haqq savaşımızda qələbə qazandığımız - Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! NİDA!-sının qoyulduğu Zəfər tariximizi ikinci ildönümündə qeyd edirik. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin düşmən tapdağı altında qalan torpaqlarımızı işğaldan azad etməsi bütün bəşəriyyətə ölkəmizin gücünün, qüdrətinin daha bir nümayişi oldu. Azərbaycan bütün dünyaya göstərdi ki, onun savaşı haqq savaşıdır. Ona görə də deyirik - Yeni Azərbaycan Partiyası, ildönümün mübarək! Qarabağ Azərbaycandır! Gözün aydın, Azərbaycan!

Həmçinin, üzümüzə gələn ilin böyük bir əlamətdarlığı var: xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamamlanır. Prezident İlham Əliyev cənablarının 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev ili" elan edilməsidir. Yeni Azərbaycan Partiyası bu partiyanın banisinin ideyaları işığında dövlətimizə layiqli xidmətlərini yenə davam etdirəcək, 30 illik tarixinin bundan sonrakı dövrünü də şərəflə yazacaq.

**RƏFİQƏ KAMALQIZI**

# "Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət idi"

## Dövlət Statistika Komitəsində YAP-ın 30 illik yubileyi münasibəti ilə tədbir keçirilib





***Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının "İnşaatçılar pr.81" (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi) ünvanı üzrə ərazi partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaranmasının 30 illik yubileyi münasibəti ilə tədbir keçirilib.***

Tədbirdə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədrinin birinci müavini Vahab Məmmədov, Komitə sədrinin müavinləri-Rauf Səlimov, Yusif Yusifov, komitənin aparat rəhbəri Cabbar Musayev, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Partiyanın qızıl fondu, 91-lərdən biri Şahlar Əsgərov, YAP Yasamal rayon təşkilatının sədr müavini Elnarə Mustafayeva, Komitənin Ümumi şöbəsinin midiri, "İnşaatçılar pr.81" ünvanı üzrə ərazi partiya təşkilatının sədri Sevda Süleymanova və ərazi üzrə partiyanın üzvləri iştirak edib.Tədbirin rəsmi hissəsində öncə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində yerləşən ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb, əziz xatirəsi dərin ehtiramla yad edilibTədbirdə ilk öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra müasir, müstəqil Azərbaycan dövlətinin banisi ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.İştirakçıları salamlayaraq tədbiri açıq elan edən Komitənin Ümumi şöbəsinin midiri, "İnşaatçılar pr.81" ünvanı üzrə ərazi partiya təşkilatının sədri Sevda Süleymanova tədbirin baş tutmasının əsas səbəbinin qarşıdan gələn Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi ilə bağlı olduğunu qeyd etdi. Ərazi partiya təşkilatının sədri ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılan Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi şərəfli inkişaf yolundan bəhs edib. Qeyd olunub ki, qələbələr partiyası kim adını tarixə qızıl hərflərlə yazdıran Yeni Azərbaycan Partiyası bu gün Cənab Prezident İlham əliyevin rəhbərliyi ilə günü-gündən inkişaf edir.Çıxış edən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin sədr müavini Rauf Səlimov qeyd etdi ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynayıb. Prezident İlham Əliyevin partiyaya sədr seçilməsindən sonra isə YAP inkişafının yeni mərhələsinə qədəm qoyub. Dövlətimizin başçısının rəhbərlik etdiyi partiyanın cəmiyyətdə böyük inam və etimada sahib olduğu vurğulanıb, bildirilib ki, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər partiyanın nüfuzunu daha da yüksəldib. Çıxış edən Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Partiyanın qızıl fondu, 91-lərdən biri Şahlar Əsgərov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. O zaman müstəqilliyinin itirilməsi təhlükəsi ilə üzləşən Azərbaycanın ümidi müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasi xadim ulu öndər Heydər Əliyevə idi. Heydər Əliyev öz Qayıdışı ilə Azərbaycana sabitlik, dirçəliş və fasiləsiz inkişaf gətirdi. Bu gün əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasını Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev uğurla həyata keçirir. Bunun nəticəsidir ki, ölkəmiz regionda güc amilinə, dünya birliyində söz sahibinə çevrilib. Yekun nitqi ilə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirdi ki, yarandığı gündən YAP-ın Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub və partiyamız bu 30 ildə öz məqsədlərinə uyğun fəaliyyət göstərib, çox mühüm nailiyyətlər əldə edilib. Bu gün Prezident İlham Əliyevin sədri olduğu partiya məramı, proqramı, həm də fəaliyyəti və əldə etdiyi nailiyyətlərlə kifayətlənmir, Azərbaycanın gələcəyi naminə iklərə imza atır, cəmiyyətimizdəki yeniliklərlə, dəyişikliklərlə bir addımlayır. Hakim partiyanın Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi dönəmində milli birlik modelini dünyaya nümayiş etdirən Azərbaycanın siyasi həyatında yeni bir strategiyanın - siyasi həmrəylik, inteqrasiya və milli birlik modelinin əsasını qoyması xüsusi ilə diqqətəlayiqdir. Çıxışının sonunda B.Nəbiyev çıxışının sonunda qarşıdan gələn Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illik yubileyi münasibəti ilə partiyamıza üzv olan bütün əməkdaşları təbrik etdi. Tədbirinin sonunda ərazi üzrə partiyaya üzv olanların bir qrupuna partiyanın ictimai-siyasi həyatında aktiv fəaliyyətə görə fəxri fərmanlar təqdim olunub.

***Nəzakət***



# Türk Dövlətləri Təşkilatı Sammitinin əhəmiyyəti

***TDT Səmərqənd Zirvə Toplantısının mühüm nəticələrindən biri şübhəsiz ki, Şimali Kipr Türk Respublikasının (ŞKTR) müşahidəçi statusu qazanması oldu. Bəyannamənin 7-ci maddəsində "Qıbrız türkləri Türk dünyasının bir parçasıdır" ifadəsi işlədilməklə ŞKTR-na müşahidəçi statusunun verilməsi Qıbrızın təcridinin aradan qaldırılması baxımından əhəmiyyət kəsb edir və artıq Türkiyədən başqa TDT üzvləri də onu özündən biləcək.***

Azərbaycan prezidenti İlham Əliyevin "Türk dünyasının coğrafi sərhədləri daha genişdir" kimi həmının razılaşdığı bəyanatdan sonra Türk dünyasının hüquqları, təhlükəsizliyi, milli kimliklərinin qorunması, assimilyasiya olmaması məsələləri təşkilatın üzvü olmayan ölkələrdən kənarda yaşayan soydaşlarımıza da bir ümid işığı oldu. Bu çağırış TDT platformasında həm də Azərbaycanın İrana verdiyi açıq mesaj idi.

Son zamanlar gərginliyin yaşandığı Qırğızıstan-Tacikistan sərhəd problemi ilə bağlı Qırğızıstana beynəlxalq hüquq əsasında açıq dəstək mesajları verən bəyannamədə immiqrasiyadan, qeyri-qanuni miqrasiyadan tutmuş terrorizm və Əfqanıstanda sabitliyin təmin edilməsinə qədər bir çox mühüm mövzular yer alır.

TDT-nin inkişafında və əməkdaşlığın dərinləşməsində diqqətdə olmalı mühüm amillərin başında üzv dövlətlərin təşkilatdan kənar ikitərəfli və çoxtərəfli əməkdaşlıqlar qurmalarıdır. Əslində bu cür əməkdaşlıq nümunələri çox olsa da, konkret müsbət nəticələr Türkiyə ilə Azərbaycan arasında münasibətlərdir ki, TDT-nin bütün əməkdaşlarına ideal bir örnək sayıla bilər.

Üzv dövlətlərin rəhbərlərinin ikitərəfli və çoxtərəfli təşəbbüsləri bu baxımdan əhəmiyyət daşıyır və TDT çərçivəsində əməkdaşlığın inkişafına gözəl töhfədir. Əslində, TDT katibliyi və üzv dövlətlərin texniki komitələri öz layihələrində ölkələrinin və başçılarının baxışlarını nəzərə alır və bu işlərin həyata keçirilməsi üçün əllərindən gələni edirlər.

Bu məqamda TDT-nin son dövrlər yüksəlişində Türkiyənin irəliləyişlərinin və ölkə prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyinin mühüm rol oynadığı danılmazdır. Azərbaycanda İ.Əliyev, Qazaxıstanda Tokayev və Nazarbayev, Qırğızıstanda Japarov və Özbəkistanda Mirziyoyev TDT-nin yüksəliş sürətində mühüm rola malikdirlər. Müşahidəçi üzv dövlət olan Macarıstan da baş naziri Viktor Orbanın sayəsində bu prosesdə ahəngdar fəaliyyət göstərir. Qeyd edək ki, SİA bu barədə Türkiyə saytlarına istinad edir.

# Ağdam iki il sonra: nəhəng quruculuq meydanı

*İlham Əliyev: "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır"*







27 ildən sonra hər bir azərbaycanlının həsrətdə gözlədiyi gün yetişdi: Ağdam Azərbaycana qaytarıldı. Həmin zamandan artıq iki il ötür. Ağdam rayonunun işğaldan azad olunması 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsində baş tutdu. Noyabrın 10-da Prezident İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub: "Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır". Bəli, beləliklə, 27 ildən sonra günəş şüaları ilə nurlanmış ağ ev Ağdam Azərbaycana qaytarıldı. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də, Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. 27 il Ağdam şəhəri də daxil olmaqla ərazisinin böyük bir hissəsi erməni işğalı altında olan ərazimiz, əzəli torpaqlarımız sahiblərinə qaytarıldı.

## "ƏZİZ AĞDAMLILAR, SİZ ARTIQ KÖÇKÜN DEYİLSİNİZ"

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin noyabrın 20-də xalqa etdiyi müraciətdə söylədiyi kimi, "Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir". "Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız", - deyən Cənab Prezident bildirib ki, biz tarix yazırıq, yeni tarix: "Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir".

30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. Artıq keçmiş məcburi köçkünə dönmüş soydaşlarımızın üzərindən bu status götürüldü. Ağdam sakinləri yurd-yuvasına dönür. Qalib dövlətin qalib sakini kimi. Tarixdə çox az xalqlara nəsib olan bir məqamdır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoymayan Ermənistan öz işğalçı siyasətini davam etdirsə də Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi.

## AZƏRBAYCAN ÖZ HAQQINA QOVUŞDU

Erməni işğalından əvvəl rayonda 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi. Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir. Arxeoloji tədqiqatlar zamanı aydın olub ki, ilk qədim insanlar rayon ərazisində 6-8 min il bundan əvvəl, yəni, eneolit dövründə (e.ə. VI-IV minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamışlar. Uzun bir tarixə malik olan Ağdam Qarabağ hadisələri başlayandan burada cərəyan edən hadisələrin mərkəzi olmuşdur. Mövcud dövlətini qədim Azərbaycan torpaqları üzərində qurmuş Ermənistan Azərbaycanın yeni bir ərazisini işğal etmək məqsədi ilə 1988-ci ilin fevralından başladığı müharibəyə ilk olaraq, məhz Ağdam rayonu cəlb olunmuş, hadisələrin ilk günlərindən ən böyük ağırlıqlar Ağdam rayonunun, onun əhalisinin üzərinə düşmüşdür. Ermənistandan öz ata-baba yurd yuvalarından, daha sonra Qarabağdan doğma isti ocaqlarından silah gücünə amansız vəhşiliklərlə qovulub didərgin salınan on minlərlə azərbaycanlı, məhz Ağdam rayonuna pənah gətirib. 1993-cü ilin iyul ayının 23-də Ağdam işğal olunur.



## "BUGÜNKÜ AZƏRBAYCAN BÜTÜN TARİX BOYUNCA ƏN QÜDRƏTLİ AZƏRBAYCANDIR"

27 il sonra Ağdam işğaldan azad olundu və Azərbaycan öz haqqına qovuşdu. Bu gün Ağdam yeni günün yaşayır. Artıq bu gün iki il bundan əvvəl işğaldan azad olunan Ağdamımızda abadlıq-quruculuq işləri həyata keçirilir. Ermənilər nə qədər vandallıq əməlləri törətsələr də, xalqımza məxsus dini-mədəniyyət abidələrin dağıtmış olsalar da, tarixi həqiqət qələbə çalıb. Azərbaycan öz haqqına qovuşub. Azərbaycan Prezident İlham Əliyev çıxışlarını birində vurğuladığı kimi, "Bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, Mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır". Dövlət başçısının və Birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunan ərazilərə, eləcə də Ağdam rayonuna səfəri və burada yeni müəssisələrin təməlinin qoyulması tezliklə Ağdamın müasir bir məkana çevriləcəyindən və sakinlərinin əzəli torpaqlarına qayıdacağından xəbər verir. Ermənilərin viran qoyduqları ərazidə irimiqyaslı layihələr icra olunur. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir.









## XIDIRLI VƏ KƏNGƏRLİ KƏNDLƏRİNİN TİKİNTİSİNƏ BAŞLANILIB

Artıq Ağdam rayonunun Xıdırlı və Kəngərli kəndlərinin dövlət başçısı tərəfindən təməli qoyulub. Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır.Rayondan 6 kilometr məsafədə yerləşən Kəngərli kəndində də 2626 nəfərin (639 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177,2 hektardır. Burada məskunlaşacaq əhalinin sayı nəzərə alınaraq, yaşayış məhəllələrinin salınmasının birinci mərhələsi üçün 66,2 hektar torpaq sahəsinin ayrılması nəzərdə tutulur. Birinci mərhələdə 1279 nəfərin köçürülməsi üçün 290 fərdi evin inşa edilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi burada mədəniyyət və əyləncə mərkəzləri, müxtəlif təyinatlı bir sıra müəssisələr, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 1182 nəfərin işlə təmin olunması nəzərdə tutulur. Artıq cari ilin oktyabrın 10-da hər iki kəndin tikinti işlərinə başlanılıb. Kəndlərdə tikinti işlərinin 2024-cü il aprelin 10-da tamamlanması nəzərdə tutulur. İşğaldan əvvəl regionun sənaye mərkəzi olan şəhər yenidən öz həyatına qaytarılacaq. Burada Ağdam Sənaye Parkı tikilir. Qarabağ xanlığının banisi və ilk hökmdarı, Cavanşirlər sülaləsinin banisi Pənahəli xanın məqbərəsinin yerləşdiyi İmarət kompleksinin və tarixi məscidin bərpası istiqamətində işlər davam etdirilir. "Qarabağ" futbol komandasının oyunlarının keçiriləcəyi stadionun tikilməsi də nəzərdə tutulub. Ağdamda yaradılması nəzərdə tutulan Qarabağ Universiteti ilə şəhər təhsil mərkəzinə çevriləcəkdir. Bütün görülən işlərlə yanaşı, artıq şəhərdə Qələbə Muzeyi və İşğal Muzeyi inşa olunur.Azərbaycan Prezidentinin bildirdiyi kimi, "Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır".

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 ilə yaxın bir zamanda xarabazara çevrilmiş torpaqlarımızda canlanma müşahidə olunur. Bütün Qarabağ zonası "yaşıl enerji" zonasına çevriləcək. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır və tezliklə Ağdam şəhəri də yenidən qurularaq, öz əzəli sakinlərini qoyuna alacaqdır.

***Zümrüd BAYRAMOVA***

# Yeni Azərbaycan Partiyası xalqın gözü ilə




***Yeni Azərbaycan Partiyası 21 noyabr 1992-ci il tarixində Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılıb. Yeni Azərbaycan Partiyası yarandığı gündən etibarən Azərbaycanın siyasi, iqtisadi, sosial, mədəni və humanitar sahəsində mühüm rol oynayıb.***

Bu il isə biz artıq Yeni Azərbaycan Partiyasının 30 illiyini qeyd edirik. Mövzu ilə əlaqədar SİA şəhər sakinlərinin fikirlərini öyrənmək məqsədilə sorğu keçirib.

**Şəhər sakini Səkinə Əliyeva:** "Mən uzun illərdir ki, Yeni Azərbaycan Partiyasının üzvüyəm. Təbii ki, partiyanın fəaliyyəti göz önündədir. Hər zaman partiya ölkənin bütün sahələrinə müsbət mənada təsir edib. Mən düşünürəm ki, bu belə də olmalıdır".



**Şəhər sakini Arzu Quliyeva:** "Mən sizə tam səmimi deyə bilərəm ki, mən Heydər Əliyevin vurğunuyam. Həyatım boyu Heydər Əliyevin pərəstişkarı olmuşam. Ümummilli Lider hər zaman öz xalqının rifahı uğrunda çalışıb. Yeni Azərbaycan Partiyasını da Heydər Əliyevin şah əsəri adlandırmaq olar".

**Şəhər sakini İsa Cəfərov:** "Yeni Azərbaycan Partiyasının fəaliyyəti hər zaman tam mütəşəkkil şəkildə təşkil olunub. Hakim partiya hesab olunan bu siyasi qurum daima mərhələli şəkildə ölkənin daxili siyasətinə birmənalı şəkildə təsir edib. Mən bir Azərbay-



can vətəndaşı kimi daima bu partiyanı dəstəkləyərək, uğurlarına sevinmişəm".



**Şəhər sakini Ümid Nəmədov:** "Yeni Azərbaycan Partiyasını 30 illikləri münasibətilə təbrik edirəm. Onlara gələcək fəaliyyətlərinə müvəffəqiyyətlər arzu edirəm. Ölkədə aparıcı rola malik olan Yeni Azərbaycan Partiyası öz fəaliyyəti ilə digər partiyalardan seçilir və fərqlənir".

**Şəhər sakini İlqar Hacıyev:** "Mən Yeni Azərbaycan Partiyasının üzvüyəm. Hər zaman Yeni Azərbaycan Partiyasının fəaliyyətini yaxından izləmişəm. Partiyanın ölkədə gördüyü işlər isə hər zaman alqışlanır. Yeni Azərbaycan Partiyasını 30 illik münasibətilə də təbrik edirəm".



**Şəhər sakini Namiq Abdullayev:** "Yeni Azərbaycan Partiyasını yubleyləri münasibəti ilə təbrik edirəm. Arzu edirəm ki, partiyanın fəaliyyəti daha uzunömürlü olar. Mən özüm də uzun illərdir ki, partiyanın üzvüyəm. Hər zaman fəaliyyətlərini dəstəkləmişəm".



**Şəhər sakini Tahir Cəfərov:** "Mən uzun illərdir ki, fotoqraf işləmişəm. Hazırda da öz sənətimi davam etdirirəm. Bizim Ulu Öndərimiz Heydər Əliyevin də fotoqrafı işləmişəm. Yeni Azərbaycan Partiyası Ümummilli Liderimizin sayəsində yaranmışdır. Bu partiyanın fəaliyyətini ölkədə yaşayan hər bir vətəndaş bilməlidir. Çünki Yeni Azərbaycan Partiyası ölkəmiz üçün bənzərsiz işlər görüb".



**Şəhər sakini Nigar Məmmədova:** "Yeni Azərbaycan Partiyası 1992-ci il 21 noyabr tarixində Ümummilli lider Heydər Əliyev tərəfindən yaradılıb. Partiya yarandığı zaman 550 nəfərdən ibarət olub. Lakin indiki dövrdə partiyanın tərkibində yüz minlərlə üzvü, milyonlarla təəssübkeşi var. Mən də partiyanı 30 illikləri münasibəti ilə təbrik edir, uzun ömürlər arzulayıram".



**Şəhər sakini Arzu Tağıyev:** "Mən partiya üzvlərinin hər birini təbrik edir. Onlara uzun ömür, can sağlığı arzulayıram. Yeni Azərbaycan Partiyasının çox böyük tarixi var. Ulu Öndər Heydər Əliyevin partiyanın yaranmasında misilsiz fəaliyyəti olub. Bugünkü gün biz rifah halında yaşayırıqsa bunların hər birində Ali Baş Komandan İlham Əliyevə borcluyuq".



**Şəhər sakini İlqar Musayev:** "Yeni Azərbaycan Partiyasının məncə, şərhə ehtiyacı yoxdur. Çünki daima onlar öz fəaliyyətlərini həyata keçirirlər. Azərbaycanda bugünkü gün bu partiyanın böyük rolu var".



**Şəhər sakini Arif Mədətov:** "Yeni Azərbaycan Partiyası Azərbaycanın simvollarından biridir. Mən düşünürəm ki, Zəfər tariximizdə yaşanmasında YAP-ın mühüm rolu var. Azərbaycan Respublikasında bu partiya aparıcı mövqedən çıxış edir. Bu səbəbdən Yeni Azərbaycan Partiyasını 30 illik yubiley münasibəti ilə təbrik edi-



rəm".

**Şəhər sakini Onur Özkan:** "Mən türk vətəndaşıyam və artıq 25 illdir ki, Azərbaycanda yaşayıram. Müasir zamanda insanların yaşadıqları ölkədəki təhlükəsizlik məsələsi çox mühüm bir mövzudur. Azərbaycan isə hər zaman öz vətəndaşlarının təhlükəsizliklərinin təmin etməsində seçilən bir dövlətdir. Yeni Azərbaycan Partiyası da bu ölkənin aparıcı qurumudursa, demək ki, bu partiyada insanların yaxşı yaşaması istiqamətində bir sıra addımlar atır. Cənab Prezident İlham Əliyevə də öz təşəkkürlərimi bildirirəm ki, öz vətəndaşlarına bu cür diqqət göstərir".




**Şəhər sakini Samir Əhmədov:** "Mən uzun illərdir ki, öz ölkəmdə həkim işləyirəm. Bu yaxınlarda mənim çalışdığım müəssisədə də YAP-ın 30 illiyi ilə bağlı tədbir təşkil olundu. Mən partiyanın fəaliyyətini yüksək şəkildə qiymətləndirdiyim üçün partiyanın üzvüyəm".



**Şəhər sakini Vüqar Əliyev:** "Yeni Azərbaycan Partiyası xalqımızın həyatında mühüm rol oynayır. Belə ki, ümummilli lider Heydər Əliyev bu partiyasının təsisçisi olub. Hazırda Ulu Öndərin fəaliyyətini cənab Prezident İlham Əliyev həyata keçirir".

***Banuçiçək Hüseynli***

Sorğu

# Terrorun acı üzü: Qarakənd faciəsi




***Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bunun acı nəticələrini hələ də yaşayır. Terrorizm haqqında birmənalı tərif olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır.***





Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq. Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror aktlarının, vəhşiliklərin, soyqırımların acı nəticələrini yaşamışdır. Ermənistan tərəfindən etnik terrora məruz qalmış Azərbaycan xalqına qarşı törədilən əməllər insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur.

Qarakənd faciəsinin baş verdiyi tarixi hadisədən bu gün bizi 31 illik bir zaman ayırır. 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında Azərbaycana məxsus "Mi-8" hərbi helikopteri erməni silahlı quldurları tərəfindən vurulub. Tarixi dövrə nəzər salsaq görərik ki, 1991-ci il noyabrın 7-də Bakıda Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya və Ermənistan həmsədrlərinin görüşü keçirildi. Görüşün səbəbi Qarabağ müharibəsi və hansı xalqın sıxışdırıldığını diqqətə çatdırmaq olmuşdur. Bu səbəbdən də, həmsədrlər razılaşırlar ki, hadisələri öz gözləri ilə görsünlər və Xankəndiyə getsinlər. 1991-ci il noyabrın 18-də Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya zəng vurur və Azərbaycan Respublikasının Qarabağ rəhbərliyindən xahiş edir ki, Təhlükəsizlik Şurasının növbəti iclasını Qarabağda keçirsin, çünki ərazidəki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakı nəzərdə tutulur. Telefon zəngindən sonra Bakıda siyahı tərtib olunur. Siyahıya Viktor Polyaniçko rəhbərlik etməli idi. Nümayəndələr, ancaq güc nazirliklərindən və Təhlükəsizlik Şurasının rəhbər orqanlarından ibarət olmalıydı. Rayon komendantı Nikolay Jinkinin müavini, polkovnik Vladimir Kuşnarikin 1991-ci il noyabrın 18-də tərtib etdiyi və Bakı ilə razılaşdırılmış siyahısına "Aşanak" kolxozunun heyvandarlıq birliyinin sədri Emil Balayan, Vladimir Kuşnarikin özü, beynəlxalq erməni diasporu (əsasən, Fransa və Kaliforniya erməni kilsələri) tərəfindən maliyyələşdirilən "Krunk" təşkilatının Qarabağdakı ideoloqlarından Oleq Yeseyan, "Yevkrapa" cəmiyyətinin maliyyə məsələlərinə baxan, onun Livan erməni diasporu ilə əlaqələndiricisi Leonard Petrosyan, zabit Tatavis Baqramyan və Azərbaycan Xalq Cəbhəsinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Xocalı, Əsgəran rayon şöbələrinin liderləri və onların Bakı nümayəndəsi daxil olsun. Məşvərət lentə alınmalı və respublika televiziyasının "Günün ekranı" xəbərlər proqramında göstərilməli idi. Saat 13:40 dəqiqədə Ağdam Hava Limanına verilən xəbərdən sonra bu adamlar vertolyota minmirlər.

Rəsmi Moskva iclasda dövlət katibi Tofiq İsmayılov və baş prokuror İsmət Qayıbovun hökmən iştirakını xahiş edir. Bu xahişi isə, məhz polkovnik Georgi Septa çatdırır. 1991-ci il noyabrın 19-u siyahı tərtib olunur və ilkin siyahı Tofiq İsmayılovun rəhbərliyilə müzakirə edilir. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıdan çıxarılır. Onların yerinə güc nazirliklərinin, qoşun birləşmələrinin rütbəli məmurları salınır. Siyahıya Viktor Polyaniçkonun başçılıq etməsi qüvvədə qalır. Ancaq 1991-ci il noyabrın 19-da gecədən xeyli keçmiş siyahı təzələnir. Viktor Polyaniçkonun, güc nazirliklərindən seçilmiş şəxslərin adları siyahıdan çıxarılır. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıya daxil olunur. Yeni siyahını Ayaz Mütəllibov 1991-ci il noyabrın 19-u, saat 23:00-da təsdiqləyir. Qarabağa gedəcək adamların siyahısı DQ rəhbərliyinə, Ağdam Hava Limanına, hərbi komendanta və Moskvaya göndərilir. Qrupun Qarabağ ərazisindəki fəaliyyətinə isə, üçlük nəzarət edir - Qarabağ təhlükəsizlik rəisi, polkovnik Georgi Septa, hərbi komendantın müavini, polkovnik Vladimir Kuşnarik və Xocavənd milis rəisi və polkovnik Oleq Osenov.

Gülablı və Yenikənd istiqamətlərində hərbi maşınlarda qurulmuş və Ağdam, Xocalı hava limanlarının uçuş və enmə zolaqlarını nəzarətə götürən radarlar vasitəsilə saat 14:05-də Ağdamdan Qarakənd istiqamətinə uçan Mİ-8 N72 vertolyotun rabitə əlaqələri kəsilir. Qırılmış rabitə ilə bağlı ilkin məlumatlar Xocavənd istiqamətində ötürülür. Lakin törədilən faciə haqqında ilkin məlumat təqribən altı saatdan sonra verilir. Ağdam, Xankəndi və Xocavənd hərbi birləşmələrinin komandanlığı susurdu. Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 dəqiqədə vurulur. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatır. Lakin bu faciə haqqında xəbər Xankəndidən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verilişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün Yerevan radiosu saat 16:15-də həmin xəbərin "qəza" kimi şərhini verir. Həmin məlumatı saat 16:40-da Tehran radiosu, 17:00-da Moskva radiosu açıqlayır.

Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, Dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev var idi. Ümumilikdə, qəza nəticəsində 22 nəfər həlak olub.

İlkin olaraq, Azərbaycanın nümayəndə heyətinin məlumatına görə, cəsədlərdən 12-si tam şəkildə tanınırdı, 3-cü qismən tanınırdı, qalanlarının şəxsiyyəti isə ekspertiza nəticəsində müəyyən edilib. Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Təxribatlar milli birliyimizi daha da gücləndirdi"



TÜRK EKSPERT AÇIQLADI

“Türkiyədə yaşanan terror hücumunun önəmli bir neçə səbəbi var”. Bu sözləri SİA-ya açıqlamasında Altınbaş Universiteti Müəllim və ASAM Mütəxəssisi, Təqaüddə olan Qərargah Polkovnik Dr.Eray Güclüer deyib. Onun sözlərinə görə, birinci olaraq Türkiyə Azərbaycanla birlikdə Qafqazlarda yeni bir şərait yaratdı: ”Yeni yaranan şəraitdə qlobal güclərin Amerikanın və Rusiyanın eyni zamanda regional qüvvələrin İranın və Ermənistanın illərdir ki, davam etdirdiyi imperalizm siyasətini Türkiyə və Azərbaycan qırdı. Türk dünyasında Azərbaycan və Türkiyənin birlikdə hərəkət etdiyi yeni bir geopolitik sahə yaratdı. Dünyanın bəzi gücləri bundan çox narahat oldu. Çünki artıq Türkiyə və Azərbaycan birliyi imperalizm güclərin Qafqazlara qarışmasına və Qafqazlardakı türk dünyasını parçalamasına əngəl olur. Beləliklə, Qafqazlardakı Türk dövlətləri keçmişdəki kimi terrorist güclərin tələblərinə boyun əymirlər. Artıq Türk dünyası müstəqil idarələri ilə Qafqazlar da yeni geopolitik vəziyyət yaratdılar. Bildiyiniz kimi, Türk Dövlətləri Təşkilatının qurulması ilə hər keçən gün



türk birliyi daha da güclənir. Bu mənada çox böyük enerji imkanları və politik siyasi iradələri olan Türk birliyi Qafqazlarda barışı, güvənliyi qorumaq üçün istifadə edilməyə başlandı. Qlobal güclər artıq əvvəlki kimi Qafqazları istismar edə bilmirlər”.

Eray Güclüer qeyd edib ki, bu səbəbdən həm Türkiyəyə, həm də Azərbaycana qarşı çox ciddi bir terror hərəkəti hazırlığı içindələr: ”Azərbaycanda da keçdiyimiz dövrdə çox mühüm əməliyyatlar aparıldı. Terror hücumlarının qarşısı alındı. İkinci olaraq Türkiyə Amerikaya rəğmən Egey dənizində geopolitik üstünlük əldə etdi. Egeydə Yunanıstanın Amerikaya arxalanaraq Türkiyəyə baş-başa gələ bilməz. Çünki hərbi mənada Yunanıstan zəifdir. Ona görə Egeydə artıq əvvəlki kimi Yunanıstan təxribatlara əl ata bilmir. Burada təbii ki, Türkiyənin sənayedə irəliləməsi də çox önəmli əhəmiyyətə malikdir. Ən son Tayfun raketinin sınaqdan keçirilməsi bir anda bütün balansları dəyişdirdi. Türkiyənin əsgəri gücü provakasiyaların qarşısını aldı. Türkiyə bölgədə qalıcı üstünlüyü əldə etdi. Üçüncü olaraq Türkiyə Suriyada Əsəd rejimi ilə müxalifləri uzlaşdırıb ortaq bir güc yaratmaq niyyəti ilə başda PKK, PYD, YPG kimi terror qruplaşmaları və DEAŞ da daxil olmaqla bütün terror qruplaşmalarının Suriyadan çıxarılmasına çalışır. Bu siyasi və hərbi yol ilə terror qrupları Suriyadan çıxarılarsa, Amerikanın da Suriyada qalmaq səbəbi olmayacaq. Burada çox kritik vəziyyətdir. Əgər bu proses başa çatarsa, Türkiyənin və Rusiyanın qarantorluğunda Suriyada yeni siyasi sistem yaradıla bilər və Amerikanın da bölgədə qalmaq şansı ortadan qalxacaq. Buna görə Avropa və ABŞ narahatdır. Son olaraq qida və enerji krizi Türkiyə üzərindən həll olundu. Bundan sonra Türkiyənin və Azərbaycanın da içində olduğu BMT barış missiyası çərçivəsində yaradılacaq müvəqqəti atəşkəs xətti olması ilə Rusiya və Ukrayna savaşının sona çatması ilə nəticələnə bilər. Lakin belə olduğu halda Amerika ilə hərəkət edən bəzi Avropa ölkələrinin provakasiyaları da gözlənilir. Burada Türkiyəyə qarşı xaricdən hərbi güclə, iqtisadi təzyiqlərlə bir şey əldə edə bilməyənlər terror qruplarından istifadə edərək Türkiyə və Azərbaycana qarşı bir həmlə etməyə çalışırlar. Bu mənada, Türkiyəyə yönələn hər bir təhdidin qarşısı alınır. Terror təxribatları bizi ayırmadı, əksinə, milli birliyimizi daha da gücləndirdi. Bunun cavabı çox yaxın zamanda veriləcək”.

***Qönçə Quliyeva***



# Əməkdaşlığın və təhlükəsizliyin qarantı: Azərbaycan-Gürcüstan dostluğu

## *İlham Əliyev: "İqtisadi, ticari, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığımız strateji tərəfdaşlığımızı səciyyələndirən mühüm amillərdir"*

***Müstəqil dövlət kimi, Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. İqtisadi, siyasi, sosial və s. qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Azərbaycan ilə Gürcüstan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb.***

Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir. Artıq Azərbaycan və Gürcüstan arasında qurulan diplomatik əlaqələrin 30-cu ildönümüdür. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstan Prezidenti xanım Salome Zurabişviliyə ünvanladığı təbrikində Azərbaycan-Gürcüstan əlaqələrinin qədim ənənələri olduğunu qeyd edərək bildirib ki, tarixən dostluq, mehriban qonşuluq, qarşılıqlı anlaşma şəraitində yaşamış və daim bir-birinə dəstək olmuş xalqlarımızın iradəsi bu gün dövlətlərarası münasibətlərimizin təməlini təşkil edir: ”Ötən 30 il ərzində qarşılıqlı inam və etimada əsaslanan əlaqələrimizin yüksələn xətt üzrə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatması xüsusi məmnunluq doğurur”.

### BİRGƏ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏR DÖVLƏTLƏRİN MARAQLARINA VƏ XALQLARIN MƏNAFELƏRİNƏ XİDMƏT EDİR

Azərbaycan müstəqillik əldə etdikdən sonra 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir. Əsrlər boyu mehriban qonşuluq şəraitində yaşamış dövlətlərin birgə həyata keçirdikləri layihələr təkcə iki dövlət üçün deyil, dünya üçün əhəmiyyət kəsb edir. Cənab Prezidentin bildirdiyi kimi, ”Dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi, daim genişlənən siyasi dialoqumuz qarşılıqlı faydalı əməkdaşlığımızın bütün sahələrdə hərtərəfli inkişafına güclü təkan vermiş, irimiqyaslı enerji və nəqliyyat layihələrinin müvəffəqiyyətlə gerçəkləşməsinə əlverişli imkan yaratmışdır. Birgə həyata keçirdiyimiz önəmli layihələr bu gün dövlətlərimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət etməklə yanaşı, bölgəmizin rifahına, sabitliyinə və təhlükəsizliyinə töhfə verir və ümumiyyətlə, bütün Avropa qitəsi üçün mühüm əhəmiyyət daşıyır”. Gürcüstanla Azərbaycanı, hər şeydən əvvəl, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün iki dövlətin mövqeləri üst-üstə düşür. Həyata keçirilən bu layihələr iqtisadi inkişafa böyük təsirini göstərməkdədir. ”Bu gün iqtisadi, ticari, enerji, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığımız strateji tərəfdaşlığımızı səciyyələndirən mühüm amillərdir”, - deyə qeyd edən Cənab Prezident onu da bildirib ki, biz dost Gürcüstan ilə əlaqələrimizə böyük önəm verir və onları daha da dərinləşdirmək əzmindəyik: ”Hesab edirəm ki, Azərbaycan-Gürcüstan əməkdaşlığını genişləndirmək və inkişaf etdirmək üçün yaxşı imkanlar vardır”.

### “AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ DİNAMİK İNKİŞAF EDƏRƏK HAZIRDA YENİ MƏZMUN KƏSB ETMƏKDƏDİR”

Bildiyimiz kimi, Azərbaycan-Gürcüstan dostluğunun çox qədim tarixi kökləri var. Əsrlər boyu qonşu olan Azərbaycan və gürcü xalqları arasında heç bir zaman ciddi problem, münaqişə olmayıb. Azərbaycan-Gürcüstan dostluğu Cənubi Qafqazda əməkdaşlığın və təhlükəsizliyin qarantına çevrilib. Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə dəstək olmuşlar. Bütün sahələrdə uğurlu əlaqələr böyük layihələrin reallaşmasına səbəb olur və iki dövlət arasında olan dostluğun təməlini daha da möhkəmləndirir. ”Əminəm ki, mövcud imkanlardan yararlanaraq xalqlarımızın və ölkərimizin rifahı, regionumuzda sülh, sabitlik və tərəqqinin bərqərar olması naminə Azərbaycan ilə Gürcüstan arasında müstəsna xarakter daşıyan əlaqələrin, strateji tərəfdaşlığın birgə səylərimizlə daha da möhkəmlənməsinə nail olacağıq”, - deyə təbrikində dövlət başçısı bildirib.Azərbaycan Prezidentinin Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə Azərbaycan Respublikası ilə Gürcüstan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibəti ünvaladığı təbrikində Avropa ilə Asiya arasında körpü rolunu oynayan regionumuzda rifaha, sabitliyə və təhlükəsizliyə töhfə verən irimiqyaslı nəqliyyat-kommunikasiya layihələrinin müvəffəqiyyətlə gerçəkləşdirilməsində sıx işbirliyimini xüsusilə qeyd edib: ”Qarşılıqlı hörmət və etimad üzərində qurulmuş Azərbaycan-Gürcüstan münasibətləri dinamik inkişaf edərək hazırda yeni məzmun kəsb etməkdədir. Hesab edirəm ki, bölgəmizin iqtisadi potensialını artırmaq üçün çox gözəl imkanlar vardır. Əminəm ki, Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin daim genişləndirilməsi, xalqlarımızın rifahı, ölkələrimizin və regionumuzun çiçəklənməsi naminə əməkdaşlığımızın bütün sahələrdə dərinləşdirilməsi, strateji tərəfdaşlığımızın daha yüksək səviyyəyə qaldırılması istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik”.

Göründüyü kimi, dövlətləri birləşdirən çoxtərəfli əlaqələr, eləcə də çoxəsrlik dostluq, qardaşlıq münasibətləri möhkəm təməl üzərindədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

Təhlil

# YAP Azərbaycanın ictimai-siyasi həyatına və mübarizələr tarixinə yeni bir keyfiyyət gətirdi

*Yeni Azərbaycan Partiyası ölkənin həyatında müstəsna rol oynayan, Ulu Öndər Heydər Əliyevin ideyalarından güc alan siyasi partiya olaraq dövlətçiliyimizin möhkəmlənməsində, cəmiyyətin ümumi mənafelərinin təmin edilməsində mühüm rol oynayıb.*



*Ağabəy ƏSGƏROV*
*Yeni Azərbaycan Partiyasının qurucularından,*
*Milli Məclisin keçmiş deputatı*

YAP siyasi zərurətdən və ictimai tələb əsasında yaranmış partiyadır. Azərbaycanın hər bir uğurunda Yeni Azərbaycan Partiyasının öz payı, rolu vardır. İllər keçdikcə partiyanın yaradıldığı dövrün reallıqları daha aydın dərk edir, bu günümüz üçün olduqca əhəmiyyətli tarixi addımın atıldığını qürurla vurğulayırıq. Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın siyasi tarixinin ən parlaq səhifələrindən biridir. 1991-ci il 18 oktyabr tarixində müstəqilliyini yenidən bərpa edən Azərbaycanın ilk illərdə yaşadıqları yaddaşlardadır. Ölkəyə rəhbərlik edənlərin bacarıqsızlıqları, siyasi savadsıqlıqları, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları Azərbaycanda xaosun, anarxiyanın, özbaşınalıqların, iqtisadi böhranın geniş vüsət almasına, torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalına səbəb oldu. O zaman Azərbaycanda hakimiyyətin milli maraqlara zidd siyasəti nəticəsində ölkədə ictimai-siyasi böhran, iqtisadi tənəzzül hökm sürürdü. 30 il əvvəl Yeni Azərbaycan Partiyasının təsis olunması Azərbaycan tarixində mühüm hadisəyə çevrildi. YAP-ın yaradılması Azərbaycanın müasir tarixinin möhtəşəm və ən əlamətdar hadisələrindən biridir. Həmin vaxtlar YAP-ın yaranması tarixi zərurət idi. Dövlətçilik məfkurəsini gücləndirmək, milli dövlətçilik ideologiyasını işləyib-hazırlamaq və onu reallaşdırmaq həmin dövrlər üçün güclü siyasi iradə və bacarıq tələb edirdi. Bunların öhdəsindən layiqincə gələ biləcək şəxs Ulu Öndər Heydər Əliyev ola bilərdi. Belə bir şəraitdə Azərbaycan xalqı ümidini məhz müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasətçi Heydər Əliyevə bağlamışdı. 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısının "91-lər" Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdi. Tarixə məşhur "91-lərin müraciəti" kimi düşmüş həmin müraciəti imzalayan ziyalılar bütün bu təhlükələri görür və getdikcə vəziyyətin daha da ağırlaşacağını, illərlə həsrətində olduğumuz müstəqilliyimizin yenidən itirilməsi təhlükəsi ilə qarşılaşacağımızı aydın dərk edirdilər. Məhz buna görə də hər zaman Azərbaycan xalqının güvəndiyi, arxalandığı, öz vətənini, millətini sonsuz məhəbbətlə sevən xilaskar liderə - Heydər Əliyevə müraciət etdilər. Bu müraciəti 91 nəfər imzalasa da, bütün xalqın istəyini və arzusunu əks etdirirdi. Həmin müraciət "Səs" qəzetində "Azərbaycan Sizin sözünüzü gözləyir" başlığı ilə dərc edilir. Ümummilli Lider Heydər Əliyev isə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq vermişdi. YAP-ın yaradılması məsələsi ortaya gələndə, təbii ki, mən də kənarda qala bilməzdim. Mən "Səs" qəzetinə baş redaktor vəzifəsinə gəlməli və Ulu Öndər Heydər Əliyevin ideyaları, dəsti-xəttini müdafiə etməli idim. "Səs"in Ulu Öndər Heydər Əliyevin tribunasına çevrilməsi üçün əlimdən nə gəlirdisə, etməli idim. O vaxtdan bu günə qədər "Səs" qəzetinin bir ana xətti olubdur. Bunu hər kəs bilir. Ulu Öndər Heydər Əliyev çox böyük dövlət xadimi və mütəfəkkir idi. Onun ideyaları çox böyük və əvəzsizdir. Həmin vaxt sırf siyasi-ideoloji qəzet kimi fəaliyyətə başlamaq çətin idi. Çünki o dövrdə hakimiyyətdə olan AXC-Müsavat cütlüyü siyasi sifarişi əsasında respublikanın bir sıra mətbu orqanlarında Ulu Öndər Heydər Əliyevə qarşı iftira və qarayaxma kampaniyası aparılırdı. O dövrdə Ulu Öndərə rəğbətin ifadə edilməsi olduqca təhlükəli idi.1992-ci il noyabrın 21-də Naxçıvanda YAP-ın təsis konfransının keçirilməsi, Ulu Öndər Heydər Əliyevin partiyanın Sədri seçilməsi ölkəmizin parlaq gələcəyini müəyyənləşdirən çox mühüm - əlamətdar hadisə oldu. YAP öz yaranışı ilə Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət gətirdi. Yeni Azərbaycan Partiyası indiyə kimi qalibiyyətlər, qələbələr, zəfərlər partiyası kimi fəaliyyət göstərib və onun bundan sonrakı fəaliyyəti də yeni-yeni nailiyyətlərlə müşayiət olunacaq. Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları, Prezident İlham Əliyevin rəhbərliyi ilə daim inkişaf edəcək.

Əlbəttə ki, xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir. Azərbaycanda gedən bütün inkişaf, məhz Ulu Öndər Heydər Əliyevin qoyduğu siyasətlə bağlıdır. Sözlə əməl birliyi, partiya üzvlərinin Ulu Öndər Heydər Əliyev ideyalarına və Onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə sədaqəti YAP-ın ölkədə nüfuzunu daha da artırmış, ümumilikdə, bölgənin aparıcı təşkilatı kimi mövqeyini möhkəmləndirmişdir. Vaxtı ilə Heydər Əliyevin dediyi, "Gün gələcək Azərbaycan dünyaya günəş kimi boylanacaq" fikri bu gün təsdiqini tapıb. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad edərək tariximizə Qələbə yazdı. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdi. 44 günlük Vətən müharibəsinə Zəfər qazandıqdan sonra yeni reallıqlar yaranmışdır.

Yenilaşən cəmiyyət, müasir dövrün çağırışları, ictimai münasibətlərin inkişafı yeni reallıqlar yaradıb. Təbii ki, real mənzərənin yaranması öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. 2020-ci ildə İkinci Qarabağ müharibəsində əldə olunmuş Qələbədən sonra yaranmış yeni reallıq siyasi islahatların dərinləşməsi üçün zəmin yaratmış oldu. Yaranmış yeni reallıqlar hakim partiyada islahatların aparılması və yeni fəaliyyət prioritetlərinin müəyyən olunmasının zəruriliyini müəyyən etmişdir. Yeni Azərbaycan Partiyasının banisi Ulu Öndər Heydər Əliyevin qurduğu, yaratdığı müstəqil Azərbaycan böyük inkişaf yolundadır. Buna dövlətimizin gücü və potensialı var. Azərbaycanın bugünki və gələcək nəsillərinin Ulu Öndər Heydər Əliyevin şərəfli adı, ölməz ruhu qarşısında müqəddəs borcu Onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq və milli birliyimizə sədaqətlə xidmət göstərməkdir.

# YAP Azərbaycanın aparıcı siyasi qüvvəsidir

*İctimai-siyasi və tarixi zərurətdən yaranan Yeni Azərbacyan Partiyası ötən 30 ildə dövlət müstəqilliyimizin möhkəmləndirilməsində inkişafa, sabitliyə, tərəqqiyə xidmət edən milli məqsədlərin reallaşdırılmasında böyük xidmətlər göstərib. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası öz sıralarında cəmiyyətin bütün təbəqələrindən olan insanları birləşdirən avangard siyasi qüvvədir.*



*Qurbanov Sultanəli*
*YAP Səbail rayon təşkilatının*
*ƏPT sədri*

Mövcud olan ayrı-ayrı siyasi partiyalar ölkənin milli maraqlarını, təhlükəsizliyini qorumaq əvəzinə hakimiyyət uğrunda mübarizə aparırdılar. Buna görə də, ölkə daxilində hərc-mərclik, xaos, ciddi böhran yaranmışdır. Ölkəmizi düşdüyü bu bəladan, məhv olmaq təhlükəsindən xilas etmək üçün Azərbaycan xalqının görkəmli ziyalıları, tanınmış insanlar Ümumilli Lider Heydər Əliyevə müraciət etdilər. Zəngin dövlətçilik təcrübəsinə malik olan, öz xalqına, dövlətinə dərindən bağlı olan Ümumilli Liderimiz Heydər Əliyev belə partiyanın yaradılmasına ehtiyac olduğunu görürdü. Ona görə də, tanınmış 91 nəfər ziyalı Ümumilli Liderimizə 1992-ci il 16 oktyabr tarixində müraciət etdi: "Sizdən xahiş edirik ki, yaranan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycanın bütün bölgələrindən bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq Lider Siz ola bilərsiniz. Yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar. Respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər. Son söz olaraq bildirilirdi ki, "Azərbaycan Sizin sözünüzü gözləyir". Ulu Öndər Heydər Əliyev cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Bu barədə də Ulu Öndər Heydər Əliyev Respublika sarayında keçirilən Yeni Azərbaycan Partiyasının yaradılmasının 5-ci il dönümü münasibətilə keçirilən təntənəli yığınacaqdakı nitqində belə demişdir: "91-lərin mənə müraciətindən əvvəl ondan bir xeyli vaxt Sirus Təbrizli böyük bir məqalə dərc etmişdir ki, biz Heydər Əliyevi Azərbaycana, Bakıya özümüz dəvət etməliyik. Mən o məqaləni də oxudum, onu çox hörmətlə qarşıladım, qəbul etdim. Ancaq o məqalə də mənim fikrimi dəyişmədi. Nəhayət, Azərbaycanda get-gedə ağırlaşdığını, çətinləşdiyini görərkən və bu partiyanın yaranması ilə əlaqədar mənə müraciət edən ziyalıların, respublikanın tanınmış adamlarının-ölkəmiz, xalqımız, torpğımız üçün ürəy həqiqətən yanan adamların iztirabını duyarkən, onların xalqımız, ölkəmiz üçün bir iş görmək arzusunu hiss edərkən mən tədricən belə bir partiyanın yaranmasına kömək etməyə razılığımı verdim. Sonra mənə 91-lərin müraciəti gəldi və mənim müraciətə cavabım oldu". Beləliklə, AXC-Müsavat cütlüyünün yaratdıqları təzyiqlərə baxmayaraq, 1992-ci il noyabrın 21-də Naxçıvan Muxtar respubliaksında 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis olundu. Çoxlu sayda təyziqlərə baxmayaraq, qısa müddətdə insanlar Yeni Azərbaycan Pariyasına üzv olmağa başladılar. Ulu Öndər demişdir: "Bu partiyaya hər kəs öz könülü, vicdanı, qəlbi ilə gəlmədidir. Hamı bilsin ki, bu partiya saflıq, saf mənəviyyat üzrəində qurulmuş bir partiyadır. Bu partiya Azərbaycanın tarixi köklərinə, milli mənəvi dəyərlərinə söykənən, ümumbəşəri dəyərlərdən bəhrələnən ümumxalq partiyasıdır. Azərbaycanın bütün vətəndaşlarının partiyasıdır. Yeni Azərbaycan Partiyası daim yaşayacaq və Azərbaycan vətəndaşlarının istək və arzularını əks etdirən böyük bir təşkilat olacaqdır". Müxalifət partiyası kimi yaranan Yeni Azərbaycan Partiyası iqtidara gəldikdən sonra digər siyasi partiyalara qanunlar əsasında fəaliyyət göstərməyə əlverişli şərait yaratdı.Ömrünü öz xalqına və dövlətinə xidmətə həsr edən Ulu Öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi partiyamıza olan inam və dəstəyi artırdı. Qısa müddətdə ümumxalq partiyasına çevrilərək müstəqil Azərbaycanın inkişafını təmin etdi.Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun uğurlu davamçısı Prezident İlham Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir. İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qrultayında demişdir: "...Yeni Azərbaycan Partiyası ölkəmizdə aparıcı siyasi qüvvədir. Partiyanızın ideyaları, siyasəti xalq tərəfindən dəstəklənir. Partiyamızın sıraları genişlənir və çox sevindirici hal ondan ibarətdir ki, gənclər partiyaya üz tuturlar: Gənclərin axını partiyamızın gələcək inkişafı üçün də əsas şərtlərdən biridir".

Möhtərəm Prezidentimiz İlham Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası tamamilə yeni keyfiyyət mərhələsində inkişafını davam etdirir. Üzvlərinin əksəriyyəti gənclərdən ibarət olan Yeni Azərbaycan Partiyası nəinki Cənubi Qafqazın, eləcə də yaxın coğrafiyanın ən güclü, mütəşəkkil, yüksək intellektual potensiala malik olan siyasi qüvvədir. Yeni Azərbaycan Partiyası nəinki qələbələr qazanan, eyni zamanda bu qələbələri uzun müddət qoruyub saxlamağı bacaran nadir partiyalardandır. Bu qələbələrin əsasında isə hər şeydən öncə azərbaycançılıq, vətənsevərlik, varislik, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi və sosial ədalət dayanır. Yeni Azərbaycan Partiyası liderimiz İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da möhtəşəm zəfərlərə imza atmağa davam edəcəkdir. Bu gün Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsidir.Ölkəmizdə sabitliyin və təhlükəsizliyin təmin olunmasına, inkişafına, torpaqlarımızın azad olunaraq Yeni infrastrukturların yaradılmasında, Qarabağımızın inkişafında Yeni Azərbaycan Partiyasının misilsiz xidmətləri, böyük rolu var. Belə ki, Ulu Öndər Heydər Əliyev xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib tərəqi yoluna çıxardığı Azərbaycan hazırda Yeni Azərbaycan Partiyasının Sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edən, yeniləşən, müasirləşən ölkəyə çevrilib. 44 günlük vətən müharibəsində Müzəffər Ordumuzun parlaq qələbəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi yolunda bir çox qəhrəman vətəndaşlarımız kimi Yeni Azərbaycan Partiyası üzvlərinin də sücaət göstərmələri sübut etdi ki, Azərbaycanın taleyi etibarlı əllərdədir. Bu nailiyyətlərin, uğurların qazanılmasına səbəb Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətdir.

# Yeni Azərbaycan Partiyası- 30

# YAP mütəşəkkil siyasi qüvvə kimi özünü təsdiq etdi



*Musa Musayev*
*Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının üzvü*

O dövrdə sağlam düşüncəli insanlar, ziyalılar AXC-Müsavat hakimiyyətinin Azərbaycanı uçuruma apardığını görürdülər. Ona görə də, onlar haqlı olaraq hesab edirdilər ki, bu vəziyyətdən xalqı yalnız Ulu Öndər Heydər Əliyev kimi lider xilas edə bilər. Bunun üçün isə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi zəruri idi, hakimiyyətə sivil yolla gəlməyin metodu isə siyasi partiya yaradaraq siyasi mübarizə aparmaq idi. 1992-ci il oktyabrın 16-da 91 ziyalı bu məqsədlə Heydər Əliyevə müraciət etdi. Həmin müraciətdə Ulu Öndərimizdən onun rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılmasına razılıq verməsi xahiş olunurdu. Ziyalıların müraciəti əsasında ulu öndər Heydər Əliyev siyasi partiya yaradıb ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Bundan sonra yerlərdə partiyanın təşkilatlanması işi başladı. Həmin ilin dekabrında YAP-ın Nəsimi rayon təşkilatının da təsis konfransı keçirildi və mən təşkilatın sədri seçildim. Bütövlükdə, vətəndaşlarımız partiyamıza axın edirdi. Müdrik, uzaqgörən xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. O dövrdə Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət idi və Azərbaycanın dünyada tanınmış, dövlətçilik təcrübəsi olan liderə ehtiyacı var idi. Bu lider Heydər Əliyev idi və hamı bu həqiqəti bütün varlığı ilə dərk edirdi. Ona görə də, Yeni Azərbaycan Partiyası respublikanın bütün bölgələrində böyük sürətlə təşkilatlanır, Heydər Əliyev siyasətini təbliğ edirdi.Respublikada isə vəziyyət getdikcə gərginləşirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında günbəgün öz nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi. Bu dönəmdə AXC-Müsavat iqtidarının fərsizliyi ucbatından 1993-cü ilin iyun ayında Gəncədə qardaş qanı töküldü. O günlərdə Gəncədə ardı-arası kəsilməyən mitinqlər keçirilir, hadisələrə siyasi qiymət verilməsi tələb edilirdi. Belə bir vəziyyətdə xalq Heydər Əliyevin hakimiyyətə gəlməsini təkidlə tələb edirdi. Vətəndaşların, ziyalıların çoxsaylı müraciətlərini nəzərə alan Azərbaycan xalqının böyük oğlu 1993-cü il iyunun 9-da Bakıya döndü. Əslində, reallığı anlayan o vaxtkı hakimiyyət də Heydər Əliyevi Bakıya dəvət etdi, onun ardınca Naxçıvana təyyarə göndərdi. Bu dönüş xalqın istəyi, tarixin zərurəti idi. Bu qayıdış insanların qəlbinə bir inam və rahatlıq toxumu səpdi, ölkənin xilas olduğuna inamı artırdı. Beləliklə, Ulu Öndər Heydər Əliyevin Bakıya qayıdaraq Azərbaycan parlamentinin sədri seçildiyi gün - 15 iyun, tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu təqvim Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Çünki Ulu Öndər Heydər Əliyevin tarixi qayıdışı baş verməsəydi, Azərbaycan, müstəqil dövlət olmayacaqdı. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini, bu gününü özünə qaytardı. Ümummilli Lider Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsindən, qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı və Azərbaycanı parçalamaq istəyənlər öz niyyətlərinə çata bilmədilər. Əlbəttə, ölkəmizdə hökm sürən xaotik meyillərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı.

Beləliklə, baş verən hadisələrin qanunauyğun nəticəsi kimi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev qısa bir zamanda milli maraqlara xidmət edən və ali prinsiplərə söykənən fəaliyyəti ilə ölkədə həmrəyliyi, bütövlüyü və inkişafı təmin etdi. Bundan sonra ölkənin siyasi sistemində müsbət mənada əsaslı dəyişikliklər oldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişlərinin də qarşısı qətiyyətlə alındı. Bundan sonra ölkədə ictimai-siyasi sabitlik tam təmin olundu. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaradıldı. "Əsrin müqaviləsi" imzalanmaqla uğurlu neft strategiyasının əsası qoyuldu. Ölkəmiz beynəlxalq müstəvidə layiqli yerini tutdu, eləcə də sosial-iqtisadi sahədə dinamik inkişaf nəzərə çarpdı. Eyni zamanda, demokratik inkişaf baxımından vacib addımlar atıldı, kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Ölkəmiz tənəzzüldən tərəqqi yoluna çıxdı. Bir sözlə, Ulu Öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil dövlətə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.Yeni Azərbaycan Partiyası da avanqard qüvvə kimi ictimai-siyasi proseslərin önündə gedirdi, ideoloji təbliğat işində aparıcı rol oynayırdı. Bu dövrdə partiyamız daha da təşkilatlanaraq mütəşəkkil siyasi qüvvə kimi özünü təsdiq etdi.

2003-cü ildə keçirilən prezident seçkilərində xalqımız Ulu Öndər Heydər Əliyev siyasətinin davamına - Cənab İlham Əliyevə səs verərək dövlət başçısı seçdi. Azərbaycan xalqı bununla da seçiciləri İlham Əliyevə səs verməyə çağıran, "İlham Əliyevə özüm qədər inanıram" deyən Heydər Əliyevin yoluna sadiqliyini bir daha nümayiş etdirdi. 2005-ci il mart ayında keçirilən YAP-ın III Qurultayında isə İlham Əliyev partiyamızın Sədri seçildi. Beləliklə, Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin inkişafının yeni mərhələsi başlandı. Azərbaycan böyük nailiyyətlər, zəfərlər qazandı. Bu zəfərlərin zirvəsi isə Prezident İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsi, torpaqlarımızın erməni işğalından azad edilməsi oldu. Bu gün güclü müstəqil Azərbaycan regionda yeni reallıqlar yaradıb, hazırda ölkəmiz Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Deyə bilərik ki, bütün dünya müstəqil Azərbaycan dövləti ilə hesablaşır. Ötən dövrdə Yeni Azərbaycan Partiyası böyük nailiyyətlərə imza atıb. YAP iştirak etdiyi bütün seçkilərdə qələbə qazanıb, ona görə də qələbələr partiyası adlanır. Cənab İlham Əliyevin liderliyi ilə partiyamız çox böyük inkişaf yolu keçib. Amma Prezidentimiz, partiyamızın Sədri İlham Əliyevin islahatlar kursu Yeni Azərbaycan Partiyasını da əhatə edib. 2021-ci ilin mart ayında keçirilən VII qurultay partiyamızın həyatında yeni mərhələnin başlanğıcı sayıla bilər. Qurultayda YAP-ın yeni nizamnaməsi qəbul olundu, strukturunda ciddi dəyişikliklər edildi, digər vacib qərarlar qəbul olundu. Bu gün partiyamız qarşıda dayanan vəzifələrin layiqincə yerinə yetirilməsi üçün bütün imkanlarını səfərbər edib. Ötən 30 il ərzində keşməkeşli, şərəfli yol keçən partiyamız gələcək nailiyyətlərə doğru inamla irəliləyir!

## KOMİTƏ SƏDRİ: "Fransa erməni lobbisinin əlində bir oyuncağa çevrilib"



"Fransa dövlətinin, Fransanın hakim dairələrinin Azərbaycana qarşı mövqeyi tarixən yanlış olub və bu gün də onlar səhv yoldadırlar". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri vurğulayıb ki, əsrlərlə Fransa öz ermənipərəst mövqeyini nümayiş etdirib, bu gün də bu mövqe ortadadır və Azərbaycana gəldikdə isə son 30 ildə, torpaqlarımızın işğal altında olduğu müddətdə biz Fransanın anti-Azərbaycan mövqeyini dəfələrlə gördük, bu gün də onun şahidiyik.

"ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi, 28 illik müddətdə Fransanın hakimiyyət dairələri, Fransa Senatı, bu ölkənin siyasətçiləri və parlament üzvləri demək olar ki, Azərbaycanın haqlı, ədalətli mövqeyini bir dəfə də müdafiə etmədilər. Əksinə, onlar dəfələrlə Türkiyəyə və Azərbaycana qarşı soyqırımlar haqqında iddialar qaldırdılar və bunu qəbul etdirməyə nail oldular.

Son dövrlərdə Fransanın prezidenti Emmanuel Makron, eləcə də bu ölkənin senatı öz anti-Azərbaycan mövqeyini açıq-aşkar nümayiş etdirməkdədir. Ermənistan baş nazirinin dəfələrlə Fransaya səfəri, Makronun son çıxışları və verdiyi bəyanatlar bir daha göstərdi ki, Fransa, eləcə də bu ölkənin prezidenti heç zaman bu münaqişənin həllində, onun nizama salınmasında və sülh prosesinin tənzimlənməsində vasitəçi ola bilməz. Çünki Fransa prezidentinin mövqeyi parlamentin mövqeyidir, oradakı erməni lobbisinin mövqeyidir və bu gün Fransa erməni lobbisinin əlində bir oyuncağa çevrilib, həmin hakimiyyət bilavasitə ermənilərin mənafelərini müdafiə etməkdədir. Fransanın prezidentinin son televiziya çıxışı da onun anti-Azərbaycan bəyanatları da deməyə əsas verir ki, biz Fransa ilə münasibətlərə yenidən baxmalıyıq. Çünki artıq Fransa ermənilərdən də çox bizə düşmən mövqe sərgiləyir və bunun həyata keçirilməsi üçün əlindən gələn bütün vasitələrdən istifadə etməkdədir.

Fransızlar, Fransa hakimiyyəti sərhədlərə hərbi qüvvələrin yerləşdirilməsi, Azərbaycana qarşı sanksiyaların tətbiq olunması, Azərbaycanın silahla hədələnməsi üçün lazım olan tədbirləri həyata keçirirlər və sərsəm bəyanatlar verirlər. Senatda qəbul olunan qətnamə bilavasitə erməni lobbisinin tapşırıqlarının bir nümunəsi kimi qiymətləndirilməlidir və Fransanın imperialist siyasətinin nümunəsidir. Çünki xalqları uzun müddət əsarətdə saxlayan, milyonlarla insanın ölümünə, faciəsinə səbəb olan Fransa kimi bir dövlətdən demokratik gedişlər, haqq, ədalət gözləmək mümkün deyil. Fransa həmişə başqa dövlətləri və xalqları istismar etməklə öz imperialist mövqeyini möhkəmləndirib, özünü silahlandırıb və bu gün də həmin yoldadır. Onun üçün demokratiya, insan azadlığı, ölkələrin ərazilərinin, ərazi bütövlüyünün tanınması ancaq saxta bəyanatlardır və elə bilirəm ki, bu, əməli işdə özünü göstərmir. Azərbaycana qarşı göstərilən münasibətlər də məhz bu imperialist siyasətdən qaynaqlanır.

Əlbəttə ki, bu qətnamənin elə bir əhəmiyyəti yoxdur. Deyildiyi kimi, bu, bir kağız parçasıdır və Fransa Senatı, Fransanın parlament üzvləri dəfələrlə belə qətnamələrin qəbul olunmasına cəhd göztəriblər, lakin onların məqsədləri həyata keçirilməyib. Ancaq bizi narahat edən, düşündürən özünü demokratik, sivil və dünyada haqqın, ədalətin tərəfdarı kimi təqdim edən bir ölkənin, Fransanın belə çirkin, belə məkrli niyyətlərə əl atması və beynəlxalq normaları ayaq altına atmasıdır. Ona görə də Azərbaycan vətəndaşları, eləcə də bütün insanlar Fransanın bu mövqeyini nifrətlə qarşılayırlar və elə bilirəm ki, bu qətnamələr, bu bəyanatlar Fransa hakimiyyəti üçün, Fransa üçün yaxşı heç nə vəd etmir. Əksinə, bu ölkənin imicinə çox böyük zərbə vurur və bu zərbə də son dövrlərdə görünməkdədir. Fransada tez-tez nümayişlər, hökumət və dövlət əleyhinə bəyanatlar səsləndirilir ki, bu da Fransanın anti-demokratik mövqedə olduğunu, insanların, Fransa vətəndaşlarının mənafeyinə deyil, ayrı-ayrı qrupların, xüsusilə də ermənilərin mənafeyinə xidmət etdiyini göstərir.

Azərbaycan dövləti güclüdür, qüdrətlidir və ölkəmizin Prezidenti cənab İlham Əliyevin dediyi kimi, heç bir təsir, heç bir bəyanat Azərbaycan xalqını öz yolundan döndərə bilməz və ona təsir etmək cəhdi yersizdir. Ona görə də Fransa bu yoldan çəkinməlidir, dünyada gedən proseslərə düzgün qiymət verməlidir və məkrli hərəkətlərinə, çirkin əməllərinə son qoymalıdır.

***İnam Hacıyev***

# Yeni Azərbaycan Partiyası- 30

# YAP 30 İL - QALİB XALQIN QALİB PARTİYASI



MUXTAR NAĞIYEV, YAP Səbail rayon təşkilatının sədri

Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, yarandığı gündən xalqın partiyasına çevrilən, Ulu Öndərimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının yaranmasının 30-cu ildönümünü tarixi bir anlarda - Qarabağımızın 30 ildən sonra 44 gün ərzində Ali Baş Komandanımız, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində əldə edilən Qələbə günümüzün ikinci ilinin sevincini yaşadığımız günlərdə qeyd edirik. Məhz bu baxımdan da, bu gün Azərbayacanın son illərdə qazandığı böyük nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır. Həmçinin, 30 ilə yaxın şərəfli yolda Azərbayacanın qazandığı uğurların bələdçisi kimi çıxış edən Ötən il martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsi də böyük tarixi hadisə idi. Çünki bu qurultay birliyimizin, həmrəyliyimizin, partiyanın təsis olunmasından ötən 30 ilə yaxın müddətdə toplanmış tarixi təcrübə ilə gənc nəslin dinamizmi arasında vəhdətin yaradılmasının və bu kimi mühüm addımlar Yeni Azərbaycan Partiyasının daim təkmilləşməyə, yeniləşməyə açıq olduğunu bir daha əyani şəkildə sübut etdi.

### Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası

Hər bir siyasi partiyanın keçdiyi yolun əsaslarına diqqət yetirmək, onun fəaliyyətinin xronikası və dinamikasını tədqiq etmək üçün bir sıra müxtəlif məqamlara toxunmaq lazımdır. Bunlardan biri partiyanın yarandığı şərait, daha dəqiq desək, hansı ictimai-siyasi şəraitdə yaranması və fəaliyyət göstərməsidir. Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək söyləyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır".Həmin vaxt hakimiyyətdə olan AXC-Müsavat liderlərinin bacarıqsızlığı, səriştəsizliyi, naşılığı ucbatından səriştəsiz qüvvələr öz antimilli, yəni milli maraqlardan uzaq siyasətləri ilə Azərbaycanı parçalanma, hətta məhv olma təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı xilası böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevdə gördü. Həmin dövrdə Ümummilli lider Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri idi. 1992-ci ilin oktyabrın 16-da 91 nəfər ziyalı "SƏS" qəzetində ümummilli liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir". Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Qeyd edək ki, ulu öndər Heydər Əliyev ziyalılara göndərdiyi cavab məktubu da "SƏS" qəzetində dərc olundu.Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayında "91-lər"in Ulu Öndərə müraciətinə yönəldərək onların fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcəklər və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır. Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular."Beləliklə, noyabrın 21-də 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası təsis olundu və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi. Bu, xalqın Ümummilli lider Heydər Əliyevə böyük inamının, Onun rəhbərlik etdiyi partiyaya dəstəyinin bariz ifadəsi idi.Həmin dövrü xatırlayan Prezident İlham Əliyev bildirib ki, 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması tarixi hadisə idi. Çünki hamımız yaxşı xatırlayırıq ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçib: "1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasının yaradılması xalqda böyük ümidlər yaratdı ki, nəhayət, xoşagəlməz hallara son qoyulacaq, nəhayət, Azərbaycanda çox ciddi siyasi qüvvə yaranır, nəhayət, Azərbaycanda siyasi sistem yaranır".

Bəli, bu gün 30 il şərəfli yol keçən qələbələr partiyası olan Yeni Azərbaycan Partiyası öz sıralarında 800 mindən çox insanı birləşdirir. Azərbaycanın müstəqillik tarixində qazandığı hər bir uğurunda Yeni Azərbaycan Partiyasının öz dəst-xətti, rolu vardır. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günlərindən bütün xalqın partiyası oldu. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq özünü Azərbaycana bağlı sayan hər kəs bu partiyada öz yerini gördü. Onun düşüncələrinə, mövqeyinə göstərilən rəğbəti duydu, bu partiyanın arzularındakı siyasi təsisat olduğunu fərq etdi. Yarandıqdan cəmi 7 ay sonra hakim partiyaya çevrildi. Bu hadisənin özü Heydər Əliyev şəxsiyyətinə inamı ifadə etməklə yanaşı, eyni zamanda, partiyanın yaranmasında ifadə olunan tarixi zərurəti və partiyanın yaranması faktına tarixin özünün çox qısa bir zaman keçdikdən sonra haqq qazandırmasını əks etdirirdi. Yeni Azərbaycan Partiyası fəaliyyətinin ilk günündən özünə aydın vəzifələr müəyyənləşdirdi: dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi. Və bunlar təkcə proqram vəzifələri olaraq kağız üzərində qalmadı. Yeni Azərbaycan Partiyası təmsilçilərindən formalaşmış iqtidar komandası xalqımızın ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək bu gün ölkəmizi tarixinin ən böyük nailiyyətlərinə yetirmiş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu vəzifələrin hər biri üzrə möhtəşəm nəticələr qazandı.

### Qalib xalqın, qalib partiyası - Yeni Azərbaycan Partiyası

Bəli, Yeni Azərbaycan Partiyası 30 il şərəfli yol keçərək monolitliyini qorudu, gücləndi, öz üstünlüyü, parlaq qələbələri ilə heç bir seçkidə rəqib tanımadı. Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanaraq bir daha ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir. Bu, həm də hər bir vətəndaşın Prezidenti olduğunun göstəricisi, Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması ildən-ilə xalq-iqtidar birliyini göstəricisidir. Məhz bu gün sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır"".

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev martın 5-də partiyanın keçirilən VII qurultayında çıxışı zamanı bir çox məsələlər toxunaraq Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olduğunu bildirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayından üç il ötdüyünü və bu illər ərzində böyük nailiyyətlər və qələbələr əldə olunduğunu deyib: "Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir". Bəli, bu Qələbə həqiqətən də bizim qürur mənbəyimizdir. Bu reallığı Azərbaycan xalqı görür və bəlkə də bu son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində tariximizin Zəfər Salnaməsi yazıldı, Bütövləşən Azərbaycanımız - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm". Prezident İlham Əliyev keçirilən qurultayda da bildirib ki, Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. "YAP Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi",-deyən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlərin önəmli olduğunun söyləyib: "Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Heydər Əliyevin fəaliyyətinin nəticəsində 1982-ci ildə isə qabaqcıl yerlərdə idi. Əgər iki respublika donor respublika idisə, onlardan biri də Azərbaycan idi. O vaxt onun gördüyü işlər həm sənaye, həm kənd təsərrüfatı, həm yüngül sənaye sahələrini böyük dərəcədə inkişaf etdirdi, canlandırdı və insanlar o dövrü xatırlayırlar. Bir də ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq xalq tərəfindən ona böyük rəğbət qazandırmışdır". Prezident İlham Əliyev onu da bildirdi ki, son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq: "Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq". Prezident, YAP-ın Sədri İlham Əliyev qurultayda geniş, dərin məzmunlu və proqram xarakterli çıxışı zamanı əldə edilən uğurları, aparılan hərtərəfli islahatlardan danışaraq, gələcək fəaliyyətlə bağlı istiqamətləri, konturları göstərdi. Azərbaycanın genişmiqyaslı islahatlar aparan ölkə olduğunu bildirən Prezident İlham Əliyev son 3 il ərzində həyata keçirilən mütərəqqi işləri yüksək qiymətləndirərək partiyanın VII qurultayının keçirilməsi zərurətini yaranmış yeni reallıqların tələbi kimi dəyərləndirdi: "Bu gün sıralarında 760 580 insanı birləşdirən YAP-ın fəaliyyəti, ideyaları, apardığı siyasət göz önündədir. Gələn il yaranmasının 30 illiyi tamam olacaq partiya ötən müddət ərzində uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində bizə səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev cənablarının söylədiyi kimi: "YAP sözün əsl mənasında, ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq".

# Ermənistanın manipulyasiyaları: nə vaxta qədər və nəticə necə olacaq?



**Yeni müharibənin baş verməməsi, "Yerablur" hərbi məzarlığının paytaxt İrəvanın içinə doğru genişlənməməsi üçün hələ ki, doğru seçim etməyə zaman tanınmaqdadır**

Ermənistanın baş naziri Nikol Paşinyanın, eləcə də Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın, həmçinin hökumət rəsmilərinin son bəyanatları bir reallığı ortaya çıxarır - onlar ölkəni daha ağır və çıxılmaz situasiyalara doğru sürükləyirlər. Daha bir fakt budur ki, Ermənistanın aşkar və gizli havadarlarının da Azərbaycana qarşı müxtəlif səpgilərdə təzyiq cəhdlərini reallaşdırmağa çalışmaları əslində mövcud situasiyanın get-gedə gərginləşməsinə səbəb olmaqdadır. Misal üçün, Rusiyanın "status" məsələsini gündəlikdə saxlama, eləcə də hazırkı vəziyyəti gələcək nəsillərə saxlamaq səyləri, o cümlədən, Paşinyan iqtidarını devirmək üçün Ruben Vardanyan adlı milyarderi Qarabağa göndərməsi, öz siyasi çıxarlarını Azərbaycanın suveren əraziləri vasitəsi ilə həll etmək maraqları, Fransa senatında Azərbaycan əleyhinə qətnamənin qəbulu və həmin qətnamədə bütövlükdə dövlətimizin maraqlarına, ərazi bütövlüyünə qarşı irəli sürülən bəndlər, amerikalı ermənipərəst senator R.Menendez başda olmaqla demokratların yuxarı palata üzərindən ölkəmizə qarşı təzyiq göstərmək cəhdləri və rəsmi Tehranın "Ermənistanın təhlükəsizliyi - İranın təhlükəsizliyidir" tipli siyasi gəvəzələmə amilləri bu məcrada ilin sonuna qədər imzalanacağı deyilən zərif sülh perspektivlərini dalana dirəməkdədir.

### İlham Əliyev: "Əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik, əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir"

O da əbəs deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 17-də Avropa İttifaqının Şərq tərəfdaşlığı üzrə xüsusi nümayəndəsi Dirk Şubeli qəbul edərkən bu kimi həssas məsələlərə öz sərt mövqeyini bildirib və kifayət qədər mühüm bəyanatlarını irəli sürüb. Ölkə rəhbərimiz nümayəndə heyətini qəbul edərkən ABŞ-ın dövlət katibi Enntoni Blinkenlə telefon danışığı apardığını xatırladıb və bildirib ki, onlar (yəni erməni tərəfi- R.R.) bizim ərazimizi və suverenliyimizi tanıdıqlarını söyləyirlər. SİTAT: "Onlar bunu nəinki deyir, o cümlədən Praqada və Soçidə bunun altında imza da atırlar. Eyni zamanda, onlar Azərbaycanda erməni azlığına aid məsələləri sülh sazişinə salmaq istəyirlər. Bu, olmayacaq. Bu, mümkün deyil. Biz buna razılıq verməyəcəyik".

Məhz bu baxımdan, görüş zamanı diqqət çəkən daha bir məqam budur ki, Ermənistan tərəfi bir tərəfdən ərazi bütövlüyümüzü tanıdıqlarını bəyan edir, digər tərəfdən isə təxribatçı siyasətlərini həyata keçirmək cəhdləri ilə prosesə xələl vururlar, bu vasitə ilə sülhün əldə olunması mümkünlüyünə maneələr yaradırlar. Bu baxımdan da dövlətimizin başçısı qeyd edib ki, bizə, yəni Azərbaycana Ermənistan hökumətinin öz gündəliyi ilə bağlı tam aydın mövqeyi lazımdır. SİTAT: "Mən bu yaxınlarda dedim ki, əgər onlar sülh istəsələr, biz də sülh istəyəcəyik. Əgər onlar sülh istəmirlərsə, onda bu, onların seçimidir. Otuz il bizdə sülh olmayıb və bunun sonunun necə olduğunu Ermənistan yaddan çıxarmamalıdır". Daha bir məqam isə Vardanyan adlı Kreml layihəsi ilə bağlıdır ki, İlham Əliyev bu barədə də açıq və sərt şəkildə bəyan edib: "Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi Vardanyan kimi insanlarla yox".

### Rəsmi Bakının qoyduğu bu müddət başa çatmaq üzrədir

Beləliklə, fakt budur ki, ilin sonuna bir aydan az vaxt qalıb və rəsmi Bakının qoyduğu bu müddət başa çatmaq üzrədir. Ermənistan və havadarları həmin məqamı xüsusi ilə diqqətə almalı və Cənubi Qafqaz regionunda yarana biləcək sülhün yenidən müharibə ilə əvəzlənməsinə şərait yaratmamalıdırlar. Belə bir məqamda digər nüanslar da üzə çıxır: Sülh olmayacaqsa müharibə faktoru qabarmağa başlayır.

Rəsmi Bakı ilk növbədə Laçında gömrük yoxlama, yaxud nəzarət buraxılış məntəqəsini yerləşdirə bilər. Bunun üzərindən hələ də Qarabağda qalan qanunsuz erməni silahlı birləşmələri Azərbaycan ərazilərini dərhal tərk etməlidirlər. Yaxud, onlara qarşı anti-terror əməliyyatlarının keçirilməsi zərurətə çevriləcək. Hansı ki, Ermənistanın baş naziri Nikol Paşinyan indinin özündə də bəyan edir ki, guya Qarabağda Ermənistan silahlı qüvvələrinə məxsus hər hansı bir hərbi birləşmələr mövcud deyil və s. Ancaq anti-terror əməliyyatlarından sonra, yəni erməni zinvorlarının sink tabutlarının haraya aparılacağından məlum olacaq ki, onlar hansı ölkənin terrorçularıdırlar. O cümlədən, həyata keçirilən anti-terror əməliyyatlarının nəticəsində də sübut ediləcək ki, Ermənistan son iki ildə Azərbaycanın ərazilərində işğalçılıq siyasətini davam etdirib. Bunu Prezident İlham Əliyev də bəyan edib ki, hələ də işğal altında qalan ərazilərimiz var. Bu ərazilər yalnız Qarabağa deyil, həm də Qazax rayonunun 7 kəndinə və Naxçıvandakı Kərki kəndinə aiddir.

Ermənistan əvvəl-axır dərk etməlidir ki, Azərbaycanın atdığı addımlar yeni və indikindən də fərqli geosiyasi reallıq yaradacaq, əlbəttə ki, rəsmi Bakının xeyrinə!

Azərbaycanın əlində daha bir rıçaq var - Ermənistandan Qarabağa gedən qanunsuz kommunikasiya xətlərinin fəaliyyətlərinin dayandırılması. Məhz Ermənistanı Qarabağda bütün təsir vasitələrindən məhrum etdikdən sonra (qaz, işıq, internet) Bakı və İrəvan ikitərəfli əsasda və ya istənilən üçüncü tərəfin vasitəçiliyi ilə danışıqları davam etdirə bilərlər. Bununla belə, Ermənistan əvvəl-axır dərk etməlidir ki, Azərbaycanın atdığı addımlar yeni və indikindən də fərqli geosiyasi reallıq yaradacaq, əlbəttə ki, rəsmi Bakının xeyrinə! Azərbaycan Prezidenti İlham Əliyevin 12 yanvar müsahibəsində bildirdiyi kimi. SİTAT: "Bizim xoşniyyətli davranışımız əbədi olmayacaq və verdiyimiz təkliflər əbədi masa üzərində qalmayacaqdır".

Təbii ki, Azərbaycanın da öz növbəsində digər tələbləri qüvvədə qalmaqdadır. Məsələn, Ermənistanın Azərbaycan ərazilərini 30 il işğal altında saxladığını etiraf etməsi Bakının İrəvandan haqlı olaraq kompensasiya tələb etməsi ilə nəticələnəcək. Ermənistan ya tələb edilən müəyyən olunmuş miqdarı Azərbaycana təhvil verməli, yaxud bunu əraziləri vasitəsi ilə kompensasiya etməlidir. Yəni mümkün ehtimallar belədir - yeni tələblər kompensasiya, işğal faktının etiraf edilməsi və Ermənistana mümkün ərazi iddiaları ola bilər.

Beləliklə, seçim Ermənistanındır və həmin seçimin edilməsinə çox az vaxt qalıb. Yeni müharibənin baş verməməsi, "Yerablur" hərbi məzarlığının paytaxt İrəvanın içinə doğru genişlənməməsi üçün hələ ki, doğru seçim etməyə zaman tanınmaqdadır. Ancaq verilən zaman da sürətlə ötüb keçir və Ermənistanın rəhbərliyi bu reallığı da əvvəl-axır dərk etmək məcburiyyətindədir.

**Rövşən RƏSULOV**



# Yumurta qıtlığı, yoxsa "kürt yatma" yanlışı?..

**Mətanət Məmmədova**

***Vallah, bəzən elə hadisələrlə, elə açıqlamalarla, elə yanaşmalarla rastlaşırsan ki, necə deyərlər, adamın matı-qutu quruyur, söz tapıb danışa bilmirsən. Bu günlər yumurta qıtlığı ilə bağlı oxuduğum xəbər kimi.***

Xəbər saytlarımızdan birinin ölkədə yumurtanın qiymətinin bahalaşması ilə əlaqədar olan xəbərində bəzi marketlərdə yumurtanın qiymətinin 40 qəpiyə qalxdığı, nəticədə marketlərdə ağ yumurtanın qiymətinin 13-16, kənd yumurtasının qiymətinin 33-40 qəpik arası olduğu, bəzi mağazalarda isə sarı broyler yumurtaların satışına rast gəlinmədiyi bildirilir.

Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının İdarə Heyətinin sədri Mürvət Həsənli açıqlama verir ki, kənd yumurtasının qiymətinin artması tələbata görədir: "Hazırda toyuqların kürt yatma dövrüdür. Bu səbəbdən kənd yumurtasının sayı azaldığına görə market və bazarlarda qiyməti artıb". İlk olaraq buna bir vətəndaş kimi münasibətimi bildirim ki, birinci, indi yumurtanın qıtlaşması yox, artması dövrüdür.

Vacib məqamlardan biri kimi vurğulayım ki, hələ qıtlıq, bahalaşma bir yana, istər kənd, istər broyler yumurtası olsun, şəhərimizdə çox təsadüf market və mağaza tapılar ki, hər ikisində, üçündə qiymətlər eyni olsun. Tək yumurtada deyil, bütün növ ərzaq məhsullarında. Bu barədə bir neçə dəfə yazmışıq da. Yanaşı market və mağazalarda, hansı ki, eyni məhsuldur, başqa-başqa qiymətlərə təklif olunur. Yumurtanın da başqa-başqa yerlərdə fərqli qiymətlərə satılmasını dəfələrlə müşahidə etmişik.

Yumurta qıtlığından söhbət açmışkən onu da vurğulayım ki, kənd yumurtası yay aylarında qıt olmalıdır. Çünki "kondisionerli" broylerdən fərqli olaraq kənd toyuqları istidən bilmirlər ki, canlarını haraya qoysunlar, hələ bir yumurta istehsal edib bizə yedirmək barədə əsla düşünmürlər. Onlar səbrsizliklə havaların sərinləşməsini gözləyirlər ki, yumurtlamağa başlasınlar.

Xəbərdə məni həm güldürən, həm də necə deyərlər, ağlatmaq üzrə olan məqamdan- mütəxəssisin "Hazırda toyuqların kürt yatma dövrüdür. Bu səbəbdən kənd yumurtasının sayı azaldığına görə market və bazarlarda qiyməti artıb" açıqlamasından danışım.

Güldüm, ona görə ki... Çox maraqlıdır, hamımız rayonlarda, kəndlərdə yaşamışıq, uşaqlığımız oralarda keçib, oralarda böyümüşük. Həyətlərimizdə toyuq-cücə saxlamışıq. Siz Allah, heç görən olub ki, toyuqlar payızda kürt yatsınlar? Toyuqlarda kürt yatma dövrü yazda, bir də yayın ilk ayında olur. Sonra havalar isinir, daha sonra da soyumağa başlayır. Mütəxəssisin dediyi kimi, indi, yəni payızda, həm də qışa bir ay qalan müddətdə toyuqların kürt yatması mümkün deyil.

Ağlamağım gəldi, ona görə ki, niyə bizi aldadırlar. Tək bu mütəxəssis yox, çoxları bizi aldadır. Özlərinə, işlərinə haqq qazandırmaq üçün bizi aldadırlar. Düşünürlər ki, camaatdı da, nə biləcək, qoy bizə verilən suala bir açıqlama verək, canımız qurtarsın. Ya fikirləşirlər ki, kimdi xəbərləri oxuyan, ya da hesab edirlər ki, məsələn, kimdi toyuğun kürt yatdığı dövrü bilən...

Təəssüflər olsun, həm də çox təəssüflər olsun.

Toyuq niyə yumurtlamır indi, niyə mağazalarda yumurta qıtdır, mən deyim, kənd yumurtasına münasibət bildirən, lakin sarı brioylerlə bağlı bir kəlmə söyləməyən həmin mütəxəssis də bilsin. Yumurtlama üçün qaydalar var, ona riayət olunan təqdirdə toyuqlar çox yaxşı yumurta istehsal edirlər. Müəyyən temperatur və yüksəkkeyfiyyətli qida.

Düşünürəm ki, bu yazıq toyuqların kürt yatma məsələsini yaza saxlayıb, hazırda broyler toyuqların yerinin hansı səbəblərdən soyuq saxlanılmasından və yeminin hansı səbəblərdən aşağı keyfiyyətdə, həm də çox güman ki, gündəlik çəkidən az verilməsindən söhbət açmaq lazımdır. Bu təqdirdə mağazalarda sarı broyler yumurtaların olmaması, ağ yumurtanın isə az istehsal üzündən qiymətinin qalxma səbəblərini bilmiş olarıq. Bunun səbəbləri bir mütəxəssis üçün çox aydındır.

Qaldı kənd yumurtasının qıtlığı məsələsinə, indi toyuqların artıq yumurtlama dövrüdür. Bu yumurta hər yerdə də istənilən qədər boldur. Ona görə qıtdır ki, o, təbiidir, insanlar isə təbii məhsullara meyil edirlər. Bu halda təbii ki, tələbat da çox olacaq.

Digər tərəfdən, kəndin zəhmətkeş insanı görür ki, ağ yumurta 13-16 qəpiyə satılır, sarı broyler yumurta ümumiyyətlə, yoxa çıxıb, belə olan halda o da kənd yumurtasının qiymətini çox yox, azacıq qaldırır. Problem bu zəhmət adamlarında deyil, yumurtanı onlardan kəndbəkənd yığıb şəhərlərə daşıyan və camaata baha qiymətə sırıyanlardadır. Satışa isə ümumi nəzarət olarsa, qiymətlər sabit və hər yerdə eynilik təşkil edər. Bu qədər sadə...

# Fransa Holokost qurbanlarına təzminat ödəməlidir

## *Paris hansı cinayəti gizlədir?*

Müəllif sonda belə bir sualla çıxış edir ki, axı son bir əsrdə dünya xalqlarına qarşı iki böyük soyqırımı törədən, ancaq buna baxmayaraq məhz özünün Avropanın demokratiya standartlarının beşiyi olduğunu iddia edən bir ölkədən başqa nə gözləmək olardı? Axı unutqanlığı bəhanə gətirmək daha asandır, nəinki tövbələnməklə günahların qəbul edilməsi yerinə...

**Rövşən RƏSULOV**




Le Matin
SAMEDI 19 OCTOBRE 1940
LE STATUT DES JUIFS EST PROMULGUÉ
Israël est désormais exclu de toute fonction publique
« J'AI MANQUÉ AFFAIRE » ET DE GAULLE ABANDONNE DAKAR AUX ANGLAIS
L'ESPAGNE ATTEINDRA SES BUTS
M. LOUIS DOIGNON, DIRECTEUR DES ASSURANCES SOCIALES RELEVÉ DE SES FONCTIONS
La zone va enfin disparaître
AVIS
L'ex-général avait été mis en échec à Ouakam, repoussé à Dakar, puis à Rufisque.
AFFICHE OBLIGATOIRE
Jüdisches Geschaeft
ENTREPRISE JUIVE
LE COMMUNIQUÉ ALLEMAND
AzVision.az

SİA xəbər verir ki, bu barədə Hans Kloss təxəllüslü azərbaycanlı jurnalist rusdilli saytların birində yazıb. Yazıda bildirilir ki, sözügedən sənəddə diqqət çəkən məqamlardan biri də "Vich" rejiminin diktatoru, fransız kollaborasionist-marşal Filip Petenin orada şəxsi qeydlər aparmasıdır. Məhz bunun nəticəsində Fransanın o vaxtkı hökumətinin "yəhudi məsələsi" ilə bağlı qərarları üzə çıxıb. SİTAT: "Fransanın 1944-cü ildə azad olunmasından sonra "Vich" avtoritar rejiminin qanunları qanuni qüvvədən düşdü, bir il sonra isə marşal Paten dövlətə xəyanət ittihamı ilə ölüm cəzasına məhkum olundu".

Qeyd edilir ki, buna baxmayaraq "holokost memarının" çoxsaylı tərəfdarları üzə çıxdı və yeni hakimiyyət ölüm cəzasını ömürlük həbs cəzası ilə əvəzləməklə onun kamerada sürdüyü yararsız həyatını ciddi-cəhdlə 23.07.51-ci il tarixinə qədər uzatmağa müyəssər oldu. SİTAT: "Təbii ki, "Yəhudi statusunun" orijinalı ictimailəşdirilənə qədər Petenin tərəfdarları on illər boyunca nəinki ona, həm də Fransa hökumətinə qarşı irəli sürülən antisemitizm ittihamlarını birmənalı olaraq rədd edirdilər. Axı məsələ nəinki faşizm ayağının altına qırmızı xalı açan ölkənin imicinə, həm də bütövlükdə büdcəsinə və iqtisadiyyatına da toxuna bilərdi".

Bildirilir ki, bu məsələyə yalnız 1995-ci ildə geri dönüldü. Uzun illər tabuya (qadağaya) məruz qalan sənəd yenidən üzə çıxdı. Belə ki, Fransanın yəhudi lobbisinin dəstəyindən məharətlə istifadə edən Jak Şirak seçkilərdə qalib gəldi və üstəlik, iki müddətə (1995-2002, 2002-2007) prezident seçildi. Lakin o da təzminat və ödəniş məsuliyyətini xatırlayaraq dərhal həmin mövzunu "İkinci Dünya Müharibəsi zamanı yəhudilərin Fransadan deportasiyasında Fransa dövlətinin iştirakı" ilə məhdudlaşdırdı, eləcə də həmin məsələ tam olaraq etiraf edilməmiş qaldı.

***"2010-cu ildə Parisdə "Memorial de la Shoah" holokost mərkəzinə maraqlı sənəd hədiyyə edilib. Bu, "Yəhudi statusu" adlı səhih sənəddir ki, 1940-cı ildə qəbul olunub və faktiki olaraq yəhudilərin vətəndaşlıq, təhsil və s. imkanlarını məhdudlaşdırmasını əks etdirir".***











# Bir zamanlar "Beşdaş", "Yeddi daş" oynardıq...



***Bu gündən dünənə… Baxır, hey baxıram. O uşaqlıq, bu uşaqlıq… O oyunlar, bu oyunlar… Uşaqların bir-birinə o sevgisi, bu sevgisi… Həyət dolu uşaqlar, həyat dolu uşaqlar. Məhəllələrin səsi-küyü, sevinci, şaqraq gülüşlü uşaqları. Nə oyunlar oynayardıq. "Beşdaş"dan başlardıq. Bunun üçün saatlarla daş axtarıb yığar-yığar, daha sonra içindən hamarların, yumruların, rənglilərin seçərdik ki, gözoxşayan, əlimizə yatan olsun… Günlərlə bu daşların ən qəşəngin axtarardıq.***

Hələ gözdən oğurlanıb daş yığmağa yollanardıq... Bu daşlarla günləri biz edərdik baş. Nə bir qüssə, nə bir kədər, deyə-gülə o qayğısız uşaqlığı bu daşlarla atartutar, barmaqların on çeşidli formasından keçirərək qalib olar, xoş saatlar yaşayardıq Bu tək bir daş oyunumu? Xeyr. Bu daş oyunu zəkamızı artırardı, göz yaddaşı bəxş edərdi uşaqlara. Əllərimizin bir andaca hərəkəti saatlarla bir idmana bərabərdi. Daşlaşardı o mənalı uşaqlığımız bu daşlarda. Gün, ay nədir? - ötən, gedən. Qalan nədir? - tək xatirə

Tək "Beşdaş"mı? Xeyr. "Evcik-evcik" oyunumuz da var idi. Daşıyardıq ev-eşikdən palaz-paltar, qab-qacaq, gəlinciklər küçəmizə. Bir guşəyə palaz açıb "evimizi" qurardıq biz. Biri ata, biri ana, biri də bala olardı. Çox sevimli ailəmizdə olanları evciklərə daşıyardıq. O illərin "Evcik-evcik" oyunundan yaddaşlara nələr hopub? Unudulmayan ən gözəli quru lavaşı ovub, üstünə də xırdalanmış pendir səpib "ailə" üçün hazırlanan yemək olub. Necə şirin yeyərdilər uşaqlar bu "yeməyi". Uzun illər bu "yeməyi" xəyallardan ala bilmir Bir sözümüz birimizə bəd gələndə küsüşərdik, küsülülük yuxumuzu ərşə çəkər, küsülülük bitənədək əzab çəkər, barışmağa can atardıq.

Binaların blokları "konsert zalarımız" idi. Pilləkənlər oturacaq. Qarşıdakı kiçicik bir "meydança" da çalanların, oxuyanların yeri idi. Musiqi məktəbində oxuyan uşaqların biri qarmon, nağarasın, biri tarın, kamançasın gətirərdi. Səsi olan oxuyardı. Yaşıdımız tamaşaçılar pilləkəndə çalanları alqışlardı. Oxuduğumuz yerdəcə mahnıların sözlərini unudardıq, bir andaca deyib-gülüb bir-birimizə qarışardıq. Açılardı birinci mərtəbədən bir qapı: "Ay uşaqlar, sizin əlinizdən biz hara gedək?" Açılardı ikinci mərtəbədən bir qapı: "Ay uşaqlar, bu nə səsdir?" Qovulmaq qorxusu çökərdi üstümüzə. Böyüklərə nə var ki, alardılar pillələri əlimizdən, sevdiyimiz bu "zalı". Başqa yerdə konsert olar? Tamaşaçı bəs harada əyləşərdi, çalanları, oxuyanları o haradan dinlərdi? Bax bunları düşünərək susardıq biz Xatirələrə çevrilən mənzərələr bu günlərdə anılanda düşünürəm: - Böyüklərin hirsinə baxmayın, qoymasaydılar, qoymazdılar bizi o pillələrə. O səs-küyə tab gətirmək asanmıdır? Gözlərinin önündəcə olmaq üçün onlar bizə susurdular. Tək bununçün? Xeyr. Lap sonralar bildim ki, mən onlar bizi qapılardan dinləyirmiş Sən demə, tamaşaçı tək məhəllə uşaqları deyilmiş. Qapının o tərəfində bizlə yaman qürur duyan neçə-neçə analar da, xalalar da var imiş

"Yeddi daş", "Ortada qaldı", "Gizlən-qaç", "Bənövşə, bəndə düşə", "Ocaq yandı, su qaynadı", "Əlimi siçan dişlədi", " Xan-vəzir", "Tıx-tıx", "Dama-dama", "Fincan-fincan", "Top divarda"dan danışmıram. İndi məhəllə uşaqları hər üzü şumal olan yeddi daş heç axtarmırlar. Onları üst-üstə yığıb topun güclü zərbəsilə heç ətrafa dağıtmırlar. İndi heç "Alma desəm aç, armud desəm, açma!", - deyən də yoxdur. Dəqiqələrlə ortada qalıb topun zərbələrindən qurtulmaq üçün o yana-bu yana qaçan da yoxdur. Bənövşə də küskün düşüb, üz çevirib, heç yaxına gəlmir ki, bəndə düşə, ya düşməyə... Ocaq yanmır, su qaynamır. Məhəllələrdə indi bir zamanlar təbaşirlə çəkdiyimiz dama yoxdur. Yağışın, bir də qarın pozmasından məyuslandığımız damaları gör nə vaxtdır, "sel aparıb". "Top divarda"n enib, "Xan-vəzir" ta unudulub, "Tıx-tıx" yada düşmür, "Fincan-fincan" da oynanmır. İndi artıq o körpəcə əlləri də heç siçanlar dişləmir. Siçanlar yerini "maus"a verib. "Maus"larsa əl dişləmir, ruhu dişləyir. Kompüterlər, smartfonlar, planşetlər, bir də ki playstationlar əvəzləyib o gözəl oyunları. Xoş xatirə qaynağı o ziyansız, zərərsiz oyunları

Tez-tez keçirəm məhəllələrdən. Yaman sükut çöküb məhəllələrə. Sanki uşaqlar yoxdur, hara isə gediblər. Lal sükut Bu sükutu yaradan nə? Təbii ki, kompüter, telefonlar, planşetlər Uşaqların əllərinə öz əlimizlə verdiyimiz xəstəliklər. Səsi çıxmasın, başı qarışsın, çöl-bayır istəməsin deyə, verdiyimiz telefonlar. Saatlarla kompüter qarşısına çökdürdüyümüz uşaqlar. Yorğun gözlər, əldən düşmüş sümüklər Onurğası durğunluqdan "dil açan", özü isə əsla usanmayan, doymayan uşaqlar

Məhəllələrdə görürəm hərdən az-maz uşaq. Əllərində planşetlər, smartfonlar Bir kənarda anaları söhbət edir qonşularla şirin-şirin. Uşaqlarsa saatlarla oyunlarda. Körpələri vəhşiliyə sürükləyən oyunlarda Telefondan gələn səslərə bax, gör necə də ətraflarda gurlayır: atışmalar, çığırışmalar, vahimələr Bir kənardasa yelləncəklər, on cür oyun qurğuları. Baxdıqca uşaq olmaq istəyirəm... Bir zamanlar heç tapmazdıq bunları. Ağaclardan kəndir asıb yelləncəklər qurardıq. Yelləndikcə nazikləşən kəndirlərsə qəflətən qırılar, üzüüstə yerə düşüb, yaman-ca yaralanardıq... Hayqırmaq istəyirəm: - Ay uşaqlar, yerə qoyun telefonları, gəlin yellənin, atılın-düşün, gününüzü heç olmasa bu oyunlarla keçirin...

Ana susur, ata susur Nə üçün görən? Özlərinin uşaqlıqda oynadığı oyunları görən niyə öyrətmirlər uşaqlara? Gözlərinin önündəcə övladları yuvarlanır ətalətə, xəstəliyə, süstlüyə Bilə-bilə, görə-görə görən niyə susur ana? Olanlara, keçənlərə nə üçün göz yumur ata?

Heç gec deyil, ay atalar, ay analar! Uşaqları aparın öz keçmişinizə. Oyunlara qonaq edin, onlara da daddırın o şirinliyi, savab edin. O illərdən uşaqlara bir pay verin Edin, hökmən edin. Uşaqlara gələcəkdə bir zamanlardan danışmağa söz verin

Bir zamanlar " Beşdaş", "Yeddi daş" oynardıq. Başlayardı bu daşlardan oyunlarımız. Heç bitməzdi, tükənməzdi Daşlaşıbdır uşaqlığımız o daşlarda. O kiçicik daşlardan başlayan oyunlarda Harda görsən o daşlardan, xatirələr düşür yada. Şirin-şəkər xatirələr. Uşaqlıqdan qalan gözəl xatirələr...

İndi deyin, necə uçmasın xəyal o illərə? Noğul kimi oyunlardan bu gün əsər qalmayan o illərə...

***Mətanət Məmmədova***







SON SƏHİFƏ
Səs
19 noyabr
2022-ci il

# Damarlarınızda qan pıtrağı olduğunu göstərən əlamət

***Damar içində qan pıtraqlaşması ciddi təhlükə yarada bilər. Bunu bilib, vaxtında tədbirlər görmək lazımdır. Milli.az bildirir ki, həkim kardioloq Oleq Varfolomeyev bu qan pıxtalarının sonradan ölüm təhlükəsi saçan tromba çevrildiyini bildirib.***



"Ayaqlarda dərin vena trombozunu müntəzəm yoxlatmaq lazımdır. Müəyyən amillər var ki, trombozu artırır. Artıq çəki, siqaret, qadınlarda hamiləlik əleyhinə dərmanlar, hamiləlik özü, 60 yaşdan yuxarı yaş, şəkər xəstəliyi, əməliyyatlar, hərəkətsiz qalmaq və s.

Bəs ayaqlarda tromb olduğunu necə bilmək olar: istənilən ağrı, ayağı bir hissəsində nəbzvari vurğu kimi hiss, bir ayağın şişkinliyi, qıcolmalar, dəridə ağarma, göyərmə, şişkinlik. Əgər bu əlamətlər varsa, dərin doppler olunmalıdır.

Bu əlamətlər başqa xəstəliklərdə də olur, amma həyati təhlükə trombda olur. Ona görə birinci o yoxlanmalıdır.

# Autizmi yaradan səbəblər nədir?

ARAŞDIRMA

***Autizm, emosional təzahürlərin və ünsiyyət sferasının açıq şəkildə çatışmazlığı olan zehni və psixoloji inkişafın pozulmasıdır. "Autizm" sözü - öz daxili aləmi olan insan və ya öz içindəki insan deməkdir. Belə bir xəstəlikdən əziyyət çəkən insan heç vaxt öz emosiyalarını, jestlərini və şifahi müraciətini başqalarına göstərmir və onların hərəkətləri çox vaxt ictimai məna daşımır.***

Bir çox valideyni bir sual narahat edir ki, uşağın autizm olduğunu necə başa düşmək olar və bu xəstəlik ilk dəfə hansı yaşda özünü göstərir? Çox vaxt bu diaqnoz 3-5 yaş arası uşaqlara qoyulur və erkən infantil autizm və ya "Kanner" sindromu adlanır. Bu xəstəliyin kliniki təzahürləri, eləcə də müalicə prinsipləri autizm formasından asılıdır və ən çox üz ifadələrinin, jestlərin, nitqin ucalığının və başa düşülməsinin pozulması ilə özünü göstərir.



### Xəstəliyin inkişafının səbəbləri hansılardır?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Əksər hallarda autizmli uşaqlar fiziki cəhətdən yaxşı inkişaf edir və xoş görünüşə malikdirlər, yəni zahiri görkəminə görə bu körpənin sinir sisteminin hər hansı bir xəstəliyi olduğunu söyləmək mümkün deyil. Autizmin dəqiq səbəbləri mütəxəssislərə məlum deyil, lakin bu xəstəliyin inkişafına kömək edə biləcək bir sıra amillər aşağıdakılardır:

serebral iflic;

hamiləlik və ya doğuş zamanı oksigen çatışmazlığı;

hamiləlik zamanı ana tərəfindən ötürülən yoluxucu xəstəliklər, məsələn, məxmərək, sitomeqalovirus;

anada piylənmə (həkimlər qeyd etdilər ki, hamiləlik zamanı ananın bədəndə piylənmə və digər metabolik pozğunluqlardan əziyyət çəkdiyi təqdirdə uşaqda autizmin inkişaf riski daha yüksəkdir);

irsi meyillilik - ailədə ana və ya ata tərəfdən uşaqlarda autizm halları varsa.

### Belə uşaqlar ətrafdakı dünyanı necə qəbul edir?

Autizmli uşaq demək olar ki, canlı cisimləri cansızlardan ayıra bilmir. Ətrafdakı bütün xarici təsirlər (toxunma, işıq, səs, yaxın təmas) autizmli insana qıcıqlandırıcı təsir göstərir, buna görə də xəstə ən çox özünə çəkilir və hətta yaxın insanlarla əlaqə qurmaqdan imtina edir.

### Autizmin simptomları və əlamətləri

Uşaqlarda autizm müəyyən klinik əlamətlərlə ifadə olunur. Erkən uşaqlıq autizmi ilk dəfə hətta bir yaşlı körpədə də özünü göstərə bilir.

Azərbaycanda autizm diaqnozlu insanların dəqiq statistikası aparılmasa da, bu rəqəmin 6000- dən çox olduğu deyilir. Səhiyyə Nazirliyi əlilliklə bağlı proqramda autizm sindromu barədə məsələlərin yer aldığını, ümumi vəziyyətin isə üç il əvvələ nisbətdə irəlilədiyini bildirib.

**"Birgə və Sağlam" İctimai Birliyinin təsisçisi və direktoru Aytən Eynalova:** "Autizm spektr pozuntusu xəstəlik olaraq tam təsdiq edilmir. Bu spektrı yaradan əsas səbəblər təəssüf ki, dünyada bilinmir. Amma son araşdırmalar onu göstərir ki, genetik bir problem olma ehtimalı var və bu genetik problem də, ətraf mühit təsiriedici qüvvələrindən ötrü yaranmış bir problemdir. İdeologiyası bilinmədiyi üçün xəstəlik olaraq da tam ifadə olunmur və təəssüf ki, tibbi müalicəsi yoxdur.

Cəmiyyətdə övladlarımızla əlaqəli məqsədimiz autizmə qalib gəlmək deyil, çünki autizm həyat boyu davam edən bir prosesdir. Əsas məqsədimiz autizmli şəxslərin həyat keyfiyyətlərini artıraraq onları sərbəst şəkildə həyata tutundurmaqdır. Mən də 20 yaşlı autizmli bir şəxsin anasıyam və illərdir də məqsədim oğlum da daxil olmaqla qurduğum birgə sağlam ictimai birliyin nəzdində dəstək alan bütün autizmli şəxslərin həyat keyfiyyətlərini, şəraitlərini yaxşılaşdırmaq və onların valideynləri və yaxınları yanında olmadan sərbəst şəkildə həyata öyrətməkdir.

Dünya araşdırmaları artıq göstərir ki, autizm spektr pozuntusu diaqnozu 2/3 yaşlarında tam dəqiq qoyula bilir. Ancaq ondan öncə də həssas olan valideynlər və professional mütəxəssislər bunu çox rahatlıqla hətta 9 ayından fərq edə bilirlər. Erkən yaşda müdaxilə doğru və intensiv olarsa autizmli şəxslərin 40 faizi gələcəkdə universitet oxuya biləcəklər. Autizm halları baş verdikdə ilk müraciət edəcəkləri adamlar psixiatrlar olmalıdır.

Biz "Birgə və Sağlam" İctimai Birliyi olaraq 10 ildir fəaliyyət göstəririk və 10 il ərzində autizm spektr pozuntusu dioqnozu ilə gələn ailələrə dəstək oluruq. 0-25 yaş arasındakı uşaqlara, yeniyetmələrə, gənclərə mərkəzimizdə bərpa dəstəyi veririk və ən önəmli işlərdən biri də maarifləndirmə işidir. Nazirliklə birgə əməkdaşlıq edib dövlət səviyyəsində həyata keçiririk. Son dörd ildə artıq Heydər Əliyev Fondu ilə əməkdaşlıq edərək bütün ölkəmizdə, hətta rayonlarımızda belə çalışmalara etməyə çalışırıq. Yaxın zamanda 25 noyabr tarixində "AzərGold" şirkətinin və Heydər Əliyev fondunun dəstəyi ilə tamamən təmənnasız dəstək verəcək bir autizm mərkəzi açırıq. Gəncədə açılacaq bu mərkəz həmçinin ətraf rayonlara da dəstək verəcəkdir".

***Havar Şəfiyeva***

# "Gözəllik inyeksiyaları"

"Gözəllik inyeksiyaları" (botoks və s.) köməyilə alında və qaşların arasındakı mimiki qırışları, burun-ağız ətrafındakı və gözlərin yanındakı qırışları aradan qaldırmaq olar.



Mimiki qırışlar ona görə əmələ gəlir ki, üzümüz daima "hərəkət edir" - biz gözümüzü qıyırıq, gülürük, gülümsəyirik və s. Metodun mənası ondan ibarətdir ki, dəri altına bəzi üz əzələlərini hərəkətsiz edən xüsusi preparatlar yeridilir. Nəticədə dəri hamarlaşır. Qırışlar dərhal deyil, bir neçə gün ərzində yox olur. Preparatın təsiri 5-6 ay davam edir. Preparatlar mimiki qırışlara nazik iynələrlə yeridilir. Hər bir sahəyə 10-15 iynə vurmaq lazımdır. İşlənəcək sahəni ağrısızlaşdırmaq üçün onun üzərinə əvvəlcə ya sərinləşdirici paket qoyulur və ya keyləşdirici krem vurulur.

"Gözəllik inyeksiyalarını" plastik cərrah və ya artıq bu sahədə xeyli təcrübəsi olan həkim-kosmetoloq etməlidir. Qeyri-professionalların əlində bu inyeksiyalar təhlükəlidir, belə ki, texniki cəhətdən düzgün yerinə yetirilməyən inyeksiya nəticəsində üzün əyilməsi, göz qapaqlarının sallanması baş verə bilər.

Proseduradan dərhal sonra işlərinizlə məşğul ola bilərsiniz. Proseduradan sonra 4 saat ərzində uzanmaq olmaz. 3 gün ərzində günəş vannası və antibiotik də qəbul etmək olmaz.

"Gözəllik inyeksiyalarından" sonra üz dərisinə qulluq edilməsi adi yolla aparıla bilər. Bu zaman yalnız üzün masajı zamanı tərpənməz əzələlər sahəsinə təzyiq etmək olmaz. Əgər effekti uzun müddət saxlamaq istəyirsinizsə, onda istənilən qızdırıcı proseduradan - hamam, sauna, üzün buxara verilməsi və s. imtina edin. Bunlar qan dövranını gücləndirdiyi üçün, nəticədə preparatın daha tez sorularaq orqanizmdən xaric olmasına səbəb olur.

Sonralar isə, botoks və ya digər preparat orqanizmdən xaric olduqca mimika da qayıdacaqdır. Amma botoks təsiri zamanı insan gözlərini qıymağı, üzünü turşutmağı tərgitmiş olur ki, bu da üz dərisinin vəziyyətinə müsbət təsir edəcəkdir. Yarım il və ya 8 aydan sonra "gözəllik inyeksiyaları" prosedurasını təkrar etmək olar.

İnyeksiyanı yüksək hərarət olduqda, kəskin iltihabı proseslərdə, əzələ distoniyasında, hamiləlik zamanı, allergiyalı insanlara, həmçinin əvvəllər botulizm xəstəliyinə tutulmuş adamlara etmək olmaz.

Mimiki qırışlarla mübarizə aparan preparatlardan başqa, hal-hazırda üz dairəsini bərpa edən, dərinin elastikliyi və həcmini qaytaran, təkcə mimiki deyil, qocalıq qırışlarını da aradan qaldıran preparatlar hazırlanmışdır. Bu preparatları dəri "dolduruculari" adlandırırlar. Doldurucu qismində kollagen, gialuron turşusu əsasında hazırlanmış preparatlardan, insanın öz piyi istifadə oluna bilər.

# Bu ingiltərəli 24 saata 10 ölkəyə səyahət etdi



***Britaniyalı bələdiyyə işçisi 24 saat ərzində ictimai nəqliyyatla 10 ölkəyə səyahət edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, İngiltərədə yaşayan 40 yaşlı bələdiyyə işçisi Co Kibble yalnız ictimai nəqliyyatdan istifadə edərək 24 saat ərzində 10 Avropa ölkəsini gəzib.***

Qeyd edək ki, Belçika, Lüksemburq, Almaniya, Fransa, İsveçrə, Lixtenşteyn, Avstriya və Slovakiya şəhərlərini gəzən Co Kibble səfərini Çexiyada başa vurub.

***Aytac Xəlilova***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**